www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 12 sentyabr 2023-cü il Çərşənbə axşamı № 161 (8297) Qiymətı 60 qəpik

**Xəbər**

**ÜST yenə qorxutdu - COVİD-dən ölüm halları artır, məktəblər açılandan sonra...**

yazısı səh.15-də

**Gündəm**

**Lavrovdan Bakıya status ittihamı**



Moskva yenə "bostanımıza" daş atdı: səbəb

yazısı səh.12-də

**Ermənilər itdən istifadə etməklə terror aktı törətməyə cəhd göstərib**

yazısı səh.2-də

**Xankəndi quldurlardan azad edilmə ərəfəsində - 44 günlük zəfərin zirvəsi...**

yazısı səh.7-də

**Qarabağda separatizmin kökü tezliklə kəsiləcək: Bakının seçki şousuna cavabındakı şifrə**

yazısı səh.4-də

**"Yeni Müsavat"a qarşı "Səlib yürüşü"**

yazısı səh.3-də

**ABŞ və Avropadan mühüm gediş - Hindistan-Ərəbistan-Avropa layihəsi...**

yazısı səh.10-da

**Qubadlı və Zəngilanda insan qalıqları ekshumasiya edildi**

yazısı səh.11-də

**ABŞ-ın səfiri nə vaxt Bakıda olacaq? - Özündən qabaq sözçüsü gəldi...**

yazısı səh.12-də

**Avropa miqrant böhranında - günahkar həm də özüdür, çünki...**

yazısı səh.14-də

**"İki sevda çəkən" Paşinyan... - Kreml düyməyə basıb?**

yazısı səh.11-də

**Tədris ili 15 sentyabrda başlayıb, 14 iyunda başa çatacaq - əmr**

yazısı səh.2-də

# SON 2 HƏFTƏ: SAXTA REJİMİN BİR ƏMƏLİYYATLIQ CANI QALIB - GÖZLƏR BAKIDA

Müharibə dayandığı yerdən davam etsə, Xankəndidə 24 saata bir silahlı quldur da qalmayacaq! 9 sentyabr "seçki" şousu separatçıların sonluğunu tezləşdirəcək...




yazısı səh.8-də

# İranlı general Bakıdan Ermənistanı ittiham etdi

Tehranla əlaqələr düzəlir?; **politoloq:** "Rəsmi Tehran qərar vermək üçün tələsməyəcək"

yazısı səh.5-də



*Üzeyir Cəfərov:*

**""F-16"larda olmayan yenilikləri Türkiyə mütəxəssisləri KAAN-da nəzərdə tutublar"**

yazısı səh.3-də



*Səyyah-bloger İradə Qədirova:*

**"Turistlərə təkcə Bakını göstərməməliyik"**

yazısı səh.13-də



*Elxan Şahinoğlu:*

**"İran generallarını Bakıya Qərbi Zəngəzura görə göndərib, nəbzimizi yoxlayırlar"**

yazısı səh.9-da

YENİ MÜSAVAT
N 161 (8297) 12 sentyabr 2023



## Türkiyənin milli müdafiə naziri Kərim Vəliyevi qəbul edib

**Türkiyənin milli müdafiə naziri Yaşar Gülər Azərbaycanın Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyevi qəbul edib.**

APA-nın İstanbul müxbirinin verdiyi xəbərə görə, bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat yayıb.




## Dünya Bankından Türkiyəyə dəstək

**Dünya Bankı (DB) ortamüddətli iqtisadi proqramını həyata keçirmək üçün Türkiyəyə 35 milyard dollarlıq yardım paketi ayırmağı planlaşdırır.**

Musavat.com xəbər verir ki, bu barədə NTV telekanalının efirində Türkiyənin maliyyə naziri Mehmet Şimşək bildirib:

"Mərkəzi Bankımızın rəhbəri ilə mənim Dünya Bankının prezidenti ilə uzun görüşümüz oldu. Proqramımız haqqında danışdıq. Dünya Bankında dedilər ki, proqramımızı dəstəkləmək üçün artıq planlaşdırılan 17 milyard dollardan əlavə, daha 18 milyard dollar ayıracaqlar. Ümumilikdə, Türkiyəyə Dünya Bankından 35 milyard ABŞ dolları məbləğində yardım paketi təqdim olunacaq".

Qeyd edək ki, ötən həftə Türkiyə hakimiyyəti ölkə iqtidadiyyatındakı problemlərin aradan qaldırılmasını nəzərdə tutan 3 illik proqramını açıqlayıb. Şimşək qeyd edib ki, Ankaranın ortamüddətli proqramının əsas komponentlərindən biri inflyasiya ilə effektiv mübarizədir:

"Proqram inflyasiyanı ağlabatan səviyyəyə, birrəqəmli rəqəmə qaytaracaq. Bu, ən mühüm məqsəddir - 3 il ərzində inflyasiyanı birrəqəmli rəqəmlərə endirmək. Çətindir amma mümkündür".

2023-cü ilin sonunda Türkiyədə inflyasiyasının 65 faizi keçəcəyi gözlənilir. Hökumət proqramına əsasən, 2024-cü ildə bu göstərici 33 faiz olmalı və 2026-cı ilədək tədricən 8,6 faizə enməlidir.

❑ **Musavat.com**

# Ərdoğan Paşinyanla regional məsələləri müzakirə edib



**Ermənistanın baş naziri Nikol Paşinyan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla telefon danışığı aparıb.**

APA xəbər verir ki, bu barədə Paşinyanın mətbuat katibi Nazeli Baqdasaryan bildirib.

Onun sözlərinə görə, liderlər Ermənistan-Türkiyə münasibətlərini və regional məsələləri müzakirə ediblər.

Telefon danışığı zamanı Paşinyan və Ərdoğan uzunmüddətli sülhün və sabitliyin regionun bütün ölkələrinin inkişafına və çiçəklənməsinə töhfə verəcəyini vurğulayıblar. Onlar eyni zamanda qeyd ediblər ki, bu istiqamətdə diplomatik səylərini davam etdirəcəklər.



## Tədris ili 15 sentyabrda başlayıb, 14 iyunda başa çatacaq - əmr

**2023/2024-cü tədris ili ölkənin bütün tipdən olan ümumi təhsil müəssisələrində (beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramlarının tədrisi istisna olmaqla) 15 sentyabr 2023-cü il tarixdə başlayacaq, 14 iyun 2024-cü il tarixdə başa çatacaq.**

APA xəbər verir ki, bu barədə elm və təhsil naziri Emin Əmrullayevin 2023/2024-cü tədris ilinin başlanması ilə bağlı imzaladığı əmrdə bildirilib.

2023/2024-cü tədris ilində ümumi təhsil müəssisələrində ilk dərs "Heydər Əliyev Azərbaycanın xilaskarı və qurucusudur" mövzusuna həsr olunacaq.

Elm və Təhsil Nazirliyi Aparatının Ümumi və məktəbəqədər təhsilin təşkili və idarəolunması, Ümumi və məktəbəqədər təhsildə məzmun, tədris və qiymətləndirmə şöbələrinə (Elnur Əliyev, Vəfa Yaqublu), Uşaqların Müdafiəsi İdarəsinə (Məlahət Hacıyeva), Azərbaycan Respublikasının Təhsil İnstitutuna (Rüfət Əzizov) tapşırılsın ki, 2022/2023-cü tədris ilinin yekunları ilə bağlı yerlərdən daxil olan problem və təklifləri ümumiləşdirib nazirliyin rəhbərliyinə təqdim olunmasını təmin etmək tapşırılıb.

## Azərbaycandan Rusiyaya qanunsuz yolla keçmək istəyənlər saxlanıldı



**Dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi, qeyri-leqal miqrasiyaya qarşı mübarizə sahəsində sərhəd mühafizə və əməliyyat-axtarış tədbirləri davam etdirilir.**

Bu barədə Musavat.com-a Dövlət Sərhəd Xidmətindən bildirilib.

Qeyd edilib ki, sentyabr ayının 9-da saat 21:44-də "Xudat" sərhəd dəstəsinin Xaçmaz rayonunun Zuxul kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti ərazisində Azərbaycan Respublikasından Rusiya Federasiyası istiqamətində dövlət sərhədini pozmağa cəhd göstərən Nepal Federativ Demokratik Respublikasının vətəndaşları - 2001-ci il təvəllüdlü Karkı Ghımıre Renuka, 1994-cü il təvəllüdlü Bahattaraı Menuka, 1997-ci il təvəllüdlü Pantha Bal Krıshna, 1986-cı il təvəllüdlü Raut Dıp saxlanılıb.

Araşdırma zamanı saxlanılan şəxslərin ölkə ərazisinə rəsmi qaydada gəlmələri, dövlət sərhədini pozaraq Azərbaycan Respublikasından Rusiya Federasiyasına, oradan isə Portuqaliya Respublikasına miqrasiya etmək niyyətində olmaları müəyyən edilib.

Sentyabr ayının 10-da saat 13:45-də "Horadiz" sərhəd dəstəsinin Beyləqan rayonunun Əmirzeyidli kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti ərazisində İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozan İran vətəndaşı - 1977-ci il təvəllüdlü Parsabad şəhər sakini Həmidi Bəhmən Hacımahmud sərhəd pozucusu qismində saxlanılıb.

Araşdırma zamanı saxlanılan şəxsin dövlət sərhədini Azərbaycandan Avropa ölkələrinə getmək məqsədilə pozması müəyyən olunub.

Sentyabr ayının 10-da saat 21:45-də "Lənkəran" sərhəd dəstəsinin Astara rayonunun Qapıçıməhəllə kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti ərazisində İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozan Əfqanıstan İslam Respublikası vətəndaşları - 1993-cü il təvəllüdlü Seraj Helaluddin Serajeddin və 1997-ci il təvəllüdlü Haidari Ezatulla Abdulkasım sərhəd pozucusu qismində saxlanılıb.

Araşdırma zamanı saxlanılan şəxslərin dövlət sərhədini Azərbaycandan Avropa ölkələrinə getmək məqsədilə pozmaları müəyyən olunub.

## Ermənilər itdən istifadə etməklə terror aktı törətməyə cəhd göstərib



**Sentyabrın 11-i saat 08:30 radələrində Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Ordumuzun Xocavənd rayonu istiqamətində döyüş növbətçiliyi aparan hərbi qulluqçularına qarşı itdən sui-qəsdçi kimi istifadə etməklə terror aktı törətməyə cəhd göstəriblər.**

APA xəbər verir ki, bu barədə Müdafiə Nazirliyi (MN) məlumat yayıb.

"Belə ki, qeyri-qanuni erməni silahlı dəstələri itin üzərinə uzaqdan idarə olunan əldəqayırma (improvizə edilmiş) partlayıcı qurğu bağlayaraq mövqelərimiz istiqamətində hərəkət etməyə məcbur ediblər. Hərbi qulluqçularımızın sayıqlığı nəticəsində erməni silahlılarının terror-təxribat əməlinin miqyasını böyütmək və şəxsi heyətə daha çox xəsarət yetirmək məqsədilə mövqelərimizə daxil olan itin üzərindəki əldə düzəlmə partlayıcı qurğunu işə salmaq cəhdinin qarşısı alınıb.

Bu təxribatı Adi silahların müəyyən növlərinin istifadəsinə qadağa və məhdudiyyətlərə dair Konvensiyanın Minaların, mina-tələlərinin və digər qurğuların tətbiqinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında protokoluna zidd olan əməl kimi qətiyyətlə pisləyirik", məlumatda deyilir.

Azərbaycan MN heyvanlardan sui-qəsd məqsədilə istifadə olunmasını mənəviyyatsız hərəkət və terror aktı kimi qiymətləndirir.

# “Yeni Müsavat”a qarşı “Səlib yürüşü”

## Bu həftə 4 məhkəmə davamız var

**Bu həftə “Yeni Müsavat”a qarşı 4 məhkəmə iddiasına baxılacaq. Bu iddialardan ikisi Gədəbəy hadisələri ilə bağlı yazdıqlarımız əsasında qaldırılıb.**

Digər bir iddia milyarder Fərhad Əhmədovun Minval.az saytına (Media Qrupunun rusdilli xəbər saytı), başqa bir iddia isə keçmiş məmur, sabiq xüsusi xidmət orqanı əməkdaşı Hacı Salayev tərəfindən “Yeni Müsavat” Media Qrupuna, Media Qrupuna daxil olan minval.infoya (Azərbaycan dilli yayım) qarşıdır.

Məhkəmə iddiaları ilə bağlı “Yeni Müsavat” Media Qrupunun hüquqşünası Vaqif Hüseyn bildirib ki, iddiaların heç biri əsaslı deyil. Hüquqşünas əminliklə bildirib ki, hər bir iddianın əsassızlığı məhkəmədə bir daha təsdiqini tapacaq: ""Yeni Müsavat" Media Qrupu illərlə məhkəmə çəkişmələrində olmuş bir media quruluşudur və bizi məhkəmələrlə sıradan çıxarmaq qeyri-mümkündür. Bu günə qədər onlarla məmur - nazirlər, komitə rəhbərləri, ən müxtəlif kateqoriyaya aid vəzifə daşıyıcıları “Yeni Müsavat”ın üstünə belə iddialarla gəliblər. “Yeni Müsavat”ı məhkəmədə udanlar belə zamana, siyasətə uduzublar. Biz proseslərdən hər zaman haqlı çıxmışıq. Hazırkı iddialarla bağlı da haqlı çıxacağımıza əminik".

**“Yeni Müsavat” Media Qrupunun rəhbəri Rauf Arifoğlu bildirib ki, indiki durumda məhkəmələrə uzun zaman ayırmaq imkanlar xaricindədir:** “Media Qrupuna aid informasiya vahidləri bu gün düşmənlə informasiya müharibəsinin ön cərgəsindədir. Ölkəmizin İranla sərhədində çox ciddi olaylar baş verir. Azərbaycan diplomatiya, informasiya və hərb sahəsində sözün həqiqi mənasında hücum strategiyası gerçəkləşdirir. Belə bir vaxtda bizim Hacı Salayevlərə, Fərhad Əhmədovlara və digərlərinə ayıracaq zamanımız yoxdur. Amma prosedur gərəyi olaraq, Azərbaycan məhkəməsinə hörmətimizi nümayiş etdirərək müvafiq əməkdaşlarımız bu işlərlə məşğul olurlar”.

**Rauf Arifoğlu bildirib ki, Media Qrupunun fəaliyyətini dayandırmaq üçün göstərilən çabalar əbəsdir:** “Əgər "Yeni Müsavat"ı məhkəmələrlə dayandırmaq mümkün olsaydı, gərək 25 il əvvəl, 1998-ci ilin oktyabrında fəaliyyətimiz dayanardı. Hər zaman olduğu kimi, mediaya qarşı çıxanlar məğlub olacaq və biz fəaliyyətimizi davam etdirəcəyik".

**Rauf Arifoğlu Hacı Salayevin iddiasından danışarkən deyib ki, tam əsassız bir iddia ilə üstümüzə hucum olunur:** “Bu iddianın diqqət cəlb etməsi 1 milyon təzminat tələbi ilə bağlıdır. Belə bir iddia düşmən tərəfin - ermənilərin də marağı, arzusu ola bilər. Ermənistana qarşı informasiya müharibəsinin əsas oyunçusunu bu şəkildə iflas etdirmək istəyini başqa adı yoxdur. Bununla belə, iddianın əsassızlığı göz qabağındadır, sadəcə, qarşı tərəf bunu görmür”.

❑ **Elşən MƏMMƏDƏLİYEV,**
**“Yeni Müsavat”**

# İki millət, bir ordu, tək doktrina

## ""F-16"larda olmayan yenilikləri Türkiyə mütəxəssisləri KAAN-da nəzərdə tutublar”



**Azərbaycanın Türkiyə ilə hərbi sahədə əməkdaşlığı ildən-ilə daha yüksək səviyyəyə qalxır. Bunu hər il reallaşan birgə hərbi təlimlər, hava hücumundan ortaq müdafiə sisteminin yaradılması yönündə atılan tarixi addımlarla yanaşı, iki qardaş ölkənin ortaq hərbi sənaye yaratmaq yönündə iş birliyi və Azərbaycanın Türkiyə tipli ordusu sisteminə keçidi uğurla davam etdirməsi şərtləndirir.**

Artıq düşmənlərimizin yuxusunu qaçıran yeni nəticələr də var. Söhbət Azərbaycanın da iştirakçısı olduğu Türkiyənin KAAN 5-ci nəsil qırıcıların istehsalı layihəsindən gedir.

“KAAN qırıcısı 2023-cü ilin sonuna kimi uçuşa hazır olacaq”.

Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada hərbi akademiyada çıxışı zamanı deyib.

Qardaş ölkə liderinin sözlərinə görə, Türkiyə tezliklə hava hücumundan müdafiə sistemlərinin ixracatçısına çevriləcək. “Tezliklə biz hava hücumundan müdafiə sistemlərimizi müxtəlif bəhanələrlə bizə satmaqdan imtina edənlərə satacağıq”, - prezident əlavə edib.

Türkiyə rəhbəri hesab edir ki, bu qırıcılar taktiki və texniki xüsusiyyətlərinə görə Amerikanın "F-35"lərini geridə qoyacaq. Təbii ki, Azərbaycanın hərbi arsenalında da yer alacaq.

**Hərbi ekspert Üzeyir Cəfərov “Yeni Müsavat”a deyib ki, Türkiyə Hərbi Sənayesinin 5-ci nəsil KAAN qırıcı təyyarəsini istehsal etməsi "F-16"larla bağlı bəzi dövlətlərin spekulyasiyalarına da son qoyulacaq:** “KAAN təyyarələrinin taktiki-texniki xarakteristikası "F-16"dan geri qalmır, bəzi parametrlər üzrə "F-16"ları qabaqlayır. "F-16"larda nəzərdə tutulmayan yenilikləri Türkiyə mütəxəssisləri KAAN-da nəzərdə tutublar. "Qızıl alma" Pilotsuz Uçuş Aparatları da 5-ci nəslə aiddir. Prezidentlər İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğan arasında keçirilən görüşlərdən birində Türkiyə prezidentinin “Qızıl alma”nın maketini Azərbaycan prezidentinə təqdim etməsi qarşıdakı dönəmdə Azərbaycan-Türkiyə münasibətlərinin genişlənməsinə işarədir. Azərbaycan Ordusunu qardaş Türkiyə ordusunun səviyyəsinə çatdırmaq üçün silah-sursat, texnika alacağıq. Azərbaycanın Hərbi Hava Qüvvələri və Hava Hucumundan Müdafiə Qüvvələri əhəmiyyətli dərəcədə yenilənəcək. Qardaş Türkiyə, Pakistan, İtaliya şirkətləri ilə bu istiqamətdə işlər aparılır. Türkiyə prezidentinin dediyi kimi, Azərbaycan prezidenti ilə həm regional, həm də digər məsələləri - Azərbaycan Ordusunun gücləndirilməsini müzakirə ediblər. Türkiyə mütəxəssislərinin Azərbaycan Ordusuna təlimləri də bu baxımdan önəmlidir. 2022-ci ildə əgər 40 təlim olmuşdusa, hazırda belə təlimlərin sayı iki qat artıb. Qarşıdakı illərdə isə əksər təlimlərdə bərabər çalışacağıq. Bu isə o deməkdir ki, Azərbaycan Ordusu Cənubi Qafqazda Gürcüstan da daxil olmaqla, NATO standartlarına uyğunlaşdırılacaq. Gürcüstan ordusunun NATO-ya hazırlanması qardaş Türkiyə ordusuna tapşırılıb. Bu gün Türkiyə hərbçiləri qonşumuz Gürcüstanın hərbçilərini NATO-ya daxil olmaq üçün hazırlayırlar. Bu istiqamətdə hazırlıq mərhələsi keçir. Qırıcıların, PUA-ların əldə edilməsi istiqamətində addımlar, komando hərbi hissələrinin yaradılması bu hazırlıqların tərkib hissəsidir. Azərbaycanda mobil, çevik hərbi hissələr formalaşdırılması ölkəmizin müdafiə və təhlükəsizliyinin gücləndirilməsinə xidmət edir".



Qeyd edək ki, Azərbaycan Prezidentinin tapşırığına əsasən hazırda Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələri modelinə uyğunlaşdırılması istiqamətində zəruri addımlar atılır. Türkiyənin Zəfər Gününə həsr olunmuş mərasimə qatılan müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev bu haqda danışmışdı. “Türkiyə Silahlı Qüvvələrinin yaxından iştirakı ilə Azərbaycan Ordusunda həyata keçirilən uğurlu hərbi islahatlar, tətbiq olunan yeni texnologiyalar, habelə silahlanmaya daxil edilmiş müxtəlif təyinatlı hərbi vasitələr Ordumuzun əməliyyat imkanlarını xeyli artırıb və döyüş qabiliyyətini yüksək səviyyəyə çatdırıb. Azərbaycan və Türkiyə orduları arasında əməkdaşlıq birliyimizi möhkəmləndirir, bölgədə sabitliyin qorunmasına və xalqlarımızın rifahının daha da yüksəldilməsinə xidmət edir”, - Baş Qərargah rəisi əlavə etmişdi. Kərim Vəliyev iki ölkə orduları arasında baş qərargahlar səviyyəsində Quru Qoşunları, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri, Xüsusi Təyinatlı Qüvvələr və Milli Müdafiə Universitetinin iştirakı ilə keçirilən təlim, döyüş hazırlığı, hərbi təhsil və digər tədbirlərin sayının artırılmasının nəzərdə tutulduğunu da açıqlamışdı: “Əminəm ki, iki qardaş ölkənin orduları arasında əməkdaşlıq bundan sonra da uğurla inkişaf edəcək”.

❑ **Elşən MƏMMƏDƏLİYEV,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 161 (8297) 12 sentyabr 2023

## Kreml: “Biz Ermənistanın hansı məqsədlər güddüyünü başa düşməliyik”




**ABŞ-Ermənistan təlimləri dərin təhlil tələb edir. APA-nın Moskva müxbiri xəbər verir ki, bunu Kremlin mətbuat katibi Dmitri Peskov bildirib. “Biz Ermənistanın hansı məqsədlər güddüyünü başa düşməliyik və bunu onunla dialoqda edəcəyik”, - deyə Rusiya prezidentinin sözçüsü vurğulayıb.**

Kremlin rəsmi nümayəndəsi vurğulayıb ki, Moskva İrəvanın yaxın tərəfdaşı olub və olacaq, problemlər ola bilər, lakin onlar dialoq çərçivəsində həll edilməlidir.

Peskov Ermənistanın KTMT-dən çıxması ilə bağlı hələlik heç bir siqnalın olmadığını da söyləyib.



# Qarabağda separatizmin kökü tezliklə kəsiləcək:

# Bakının seçki şousuna cavabındakı şifrə

## Xüsusi əməliyyat ilk növbədə nədən ibarət olmalıdır? - polkovnik açıqladı

**Sentyabrın 9-da Qarabağda uydurma rejimin oyuncaq parlamentində Samvel Şahramanyan 22 “səs”lə saxta qurumun yeni “prezidenti seçildi”. Bir gün sonra isə həyasızcasına “andiçmə” də keçirdilər.**

Gözlənildiyi kimi, “seçki” şousunu heç bir dövlət və beynəlxalq təşkilat tanımadı. Türkiyə, Ukrayna, Moldova, Avropa İttifaqı, Pakistan, İslam Əməkdaşlıq Təşkilatı, Böyük Britaniya qanunsuz “seçkiləri” pislədi (Rusiyadan, ABŞ-dan hələ ki xəbər yoxdur, böyük bacı Fransanın mövqeyi də ki, çoxdan məlum).

Hələlik Ermənistanın rəhbər şəxslərindən də kimsə üzdəniraq təzə “prezident”i təbrik etməyib. Yalnız Xocalı caniləri Robert Köçəryan və Serj Sərkisyan.

Bu isə öz suveren ərazisində sərt şəkildə qayda-qanun yaratmaq üçün rəsmi Bakıya əlavə fürsət yaradır. Artıq Azərbaycan olaya kəskin reaksiyasını bildirib. XİN-in bəyanatında deyilir ki, Azərbaycan ərazisində siyasi iradənin seçki vasitəsilə ifadəsinin legitim əsasını yalnız ölkəmizin konstitusiyası və qanunları təşkil edir: “Azərbaycanın suveren ərazilərində yaradılmış və Ermənistanın hərbi, siyasi, maliyyə və digər dəstəyi sayəsində mövcudluğunu davam etdirməyə çalışan bu rejim tərəfindən atılan addımların heç bir qanuni qüvvəsi yoxdur... Ermənistan öz xalqı və beynəlxalq ictimaiyyəti aldatmaq məqsədi daşıyan lüzumsuz cəhdlərindən əl çəkməli, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı iddialara son qoymalı, normallaşma prosesində konstruktiv şəkildə iştirak etməli və beynəlxalq öhdəliklərinə əməl etməlidir.

Azərbaycan Respublikası beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində suverenliyi və ərazi bütövlüyünə qarşı törədilən təhdidlərin qarşısını qətiyyətlə alacaq. Bölgədə sülh və sabitliyə nail olmağın yeganə yolu erməni silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindən qeyd-şərtsiz və tamamilə çıxarılması, qondarma rejimin buraxılmasıdır".

44 günlük müharibədən sonra ilk olan belə bir “seçki” tamaşasının arxasında, şübhəsiz, ən əvvəl ərazi bütövlüyümüzü və suverenliyimizi hələ də saya salmayan Ermənistan və onun Fransa başda olmaqla, havadarları dayanıb. Əlbəttə, Rusiyanın da qəbuledilməz susqunluğu və laqeydliyi qeyd olunmaldır.

Azərbaycan rəhbərliyi isə son vaxtlar dönə-dönə vurğulayıb ki, ərazimizdə “boz zona”nın mövcudluğuna imkan verməyəcək. Bəs Bakının kontr-tədbirləri konkret nədən ibarət olacaq? Separatizmə qarşı taktikaya dəyişiklik ediləcəkmi? Bəlkə “Şeytan yuvası”nda bizə meydan oxuyanları nöqtəvi şəkildə, bir-bir dənləmək və ya qandallayıb Bakıya gətirmək zamanı çatıb?

**Hərbi ekspert, polkovnik Rövşən Məhərrəmov “Yeni Müsavat”a bildirdi ki, son zamanlar Qarabağda və Ermənistanla sərhədlərimizdə gərginlik artmaqda davam edir:** "Ermənilər hər gün təxribatlara əl atırlar. Xüsusilə Rusiya sülhməramlı kontingentinin müvəqqəti nəzarəti altında olan ərazilərimizdəki separatçı ermənilər tərəfindən ən müxtəlif təxribatlar həyata keçirilir. 9 sentybarda qondarma seçki keçirmələri isə artıq bütün hədləri aşmaq oldu. Azərbaycan ən yüksək səviyyədə dəfələrlə bəyan edib ki, Qarabağ məsələsi artıq bitib, Qarabağdakı qondarma separatçı qurum özünü buraxmalı və tərksilah olmalıdır. Qarabağdakı qondarma seçkini dünyada kimsə tanımır. Lakin quldur rejimin 9 sentyabrda “seçki” keçirməsi Azərbaycana müharibə elan eləmək kimi məsələdir. Qarabağ iqtisadi rayonu Azərbaycanın inzibati ərazi bölgələrindən biridir. Azərbaycan imkan verməyəcək ki, ərazisində separatçılar, qeyri-qanuni silahlı birləşmələr fəaliyyət göstərsin. Azərbaycan hələ ki, bu problemi diplomatik-siyasi yolla həll eləməyə çalışır. Azərbaycan Qarabağda yaşayan erməni sakinlərə anlatmaq istəyir ki, siz də bizim vətəndaşlarımızsınız, gəlin pasportunuzu alın və normal yaşayın. Amma erməni əhaliyə Azərbaycan pasportunu qəbul etməyə həm separatçı rejim, həm də kənar qüvvələr imkan vermir. Separatçı rejimin başında dayanan cinayətkarlar Fransadan, Ermənistandan və digər kənar güclərdən verilən dəstəyə arxayın olaraq öz cinayətlərini davam etdirirlər. Ancaq Bakı buna uzun müddət dözməyəcək, çox ciddi kontrtədbirlər həyata keçirəcək. Əgər problem siyasi yolla həllini tapmayacaqsa Azərbaycan separatçı rejimin cinayətkar rəhbərlərinə, üzvlərinə, silahlı dəstələrinin komandirlərinə qarşı həbs etmə, zərərsizləşdirmə əməliyyatları həyata keçirəcək. Separatçı rejim artıq o qədər azğınlaşıb ki, erməni əhaliyə göndərilən humanitar yardımı buraxmırlar. Bu həm də o deməkdir ki, "aclıq" “humanitar böhran” hay-həşiri, sadəcə, Azərbaycana qarşı beynəlxalq təzyiq yaratmaq üçün həyata keçirilən şoudur, əslində heç bir aclıq və humanitar böhran yoxdur. Azərbaycanın müvafiq güc strukrurları xüsusi əməliyyat keçirməlidir və Xankəndidəki şeytan yuvasını zərərsizləşdirməlidir. Xüsusi əməliyyat ilk növbədə nədən ibarət olmalıdır? Qarabağdakı qeyir-qanuni erməni silahlı birləşmələrə ərazimizi tərk etmələri üçün qısa vaxt qoymaq. Həmin vaxt ərzində ərazimizi tərk etməzlərsə onları tərk-silah etmək, müqavimət göstərəcəkləri halda zərərsizləşdirmək. Tədbirin ikinci fazası isə Xankəndidə suveren hakimiyyətimizi qurmaq. Kimlər ki, Azərbaycan vətəndaşı olublar onlar və onların övladları Azərbaycan vətəndaşı kimi qalıb yaşamaq istədiyini bəyan edəcəksə, müraciət edəcəklərsə, onlara qalıb yaşamaq hüquqi verilməlidir. Müqavimət göstərən separatçılar isə qanuni şəkildə bir-bir dənlənərək tərk-silah edilməli və həbs edilməlidir və məhkəmə qarşısına çıxarılmalıdırlar. Bu da mümkün olmadığı halda zərərsizləşdirilməlidirlər. Laçındakı qanuni mövqeyimizdən zərrə qədər geri çəkilməməliyik. Xalq bu məsələdə dövlətin, İlham Əliyevin yanındadır. Odur ki, Bakı qətiyyətində davam etməli lazımi qəti addımlarını da atmalıdır. Mən hesab edirəm ki, yaxın zamanlarda Azərbaycan qəti addımları atacaq".

**Siyasi ekspert Nazim Cəfərsoy bildirib ki, Azərbaycan dövləti Qarabağdakı terörist qruplara qarşı anti-terror əməliyyatı etmədikcə və başda Ruben Vardanyan olmaq üzrə oradakı separatçı xainlərə qarşı xüsusi həbs tədbirləri həyata keçirmədikcə Qarabağda suverenliyimiz təmin olunmayacaq. Bir an öncə əməliyyatları etmək şərtdir:** “Üç günlük bir əməliyyat üç illik müzakirədən daha yaxşı effekt verəcək. O terroristlər və separatçılar təəssüf ki, başqa dildən anlamırlar. Əksi özümüzü aldatmaqdır”.

Artıq hətta bəzi ermənilər də separatçı rejimin cinayətkar ünsürlərinin Ermənistan üçün belə təhlükə olduğunu yazmağa və onlarla bağlı ölçü götürməyə çağırışlar edirlər. Məsələn, ermənistanlı bloger Roman Baqdasaryan erməni cəmiyyətinə müraciət edərək, Qarabağ klanının nümayəndələrinin Ermənistana daxil olmasının yaratdığı təhlükədən danışıb. O, bu barədə Facebook səhifəsində yazıb. “Müharibədən 3 il keçir. Qarabağdakı xainlər - Araikin "məmurları", “generalları” həbsxanadan Ermənistana qaçır və burada cəzasız olaraq dolaşır. Niyə biz hər kəsə Qarabağdan Ermənistana gəlməyə icazə veririk? Niyə heç kim Samvel Oqanovskinin Ermənistanda nə işlə məşğul olduğunu soruşmur? “Xankəndi merinin” arvadı kənd təsərrüfatına rəhbərlik edirsə, uşaqları ilə niyə Ermənistana qaçıb? Ermənistan işdə olmayan insanların maaşını necə verir? Onlar iş yerində deyil, Ermənistanda kef edirlər. Bako və Araikin göstərişi ilə həbsxanalarda adam öldürən o qarabağlılar niyə İrəvanda sakit gəzirlər? İnsanlar cinayət məsuliyyətinə cəlb olunurlar, qətllərdə ittiham olunurlar, amma yenə də sakitcə Ermənistana köçürlər. Təsəvvür edə bilərsinizmi ki, onlar hansı zərərlərə səbəb ola bilərlər?" - bloger bildirib.

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

**Sentyabrın 9-da Bakıda Azərbaycan-İran Birgə Komissiyanın iclası keçirilib. İclasdan öncə Azərbaycanın müdafiə naziri Zakir Həsənov general-mayor Məhəmməd Əhədinin rəhbərlik etdiyi İran Silahlı Qüvvələrinin nümayəndə heyətini qəbul edib. İranlı qonaqlar əvvəlcə Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarlarını ziyarət edərək "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar. Bakıdakı Hərbi Qənimətlər Parkını ziyarət ediblər.**

# İranlı general Bakıdan Ermənistanı ittiham etdi - Tehranla əlaqələr düzəlir?

## Politoloq: "Rəsmi Tehran qərar verməк üçün tələsməyəcək"



Müdafiə Nazirliyində keçirilən görüşdə qonaqpərvərliyə görə minnətdarlığını bildirən M.Əhədi Azərbaycan-İran əlaqələrinin qədim tarixi köklərə söykəndiyini və mehriban qonşuluq əlaqələrinin genişləndirilməsi baxımından qarşılıqlı səfərlərin vacibliyini qeyd edib.

Maraqlıdır ki, Azərbaycanın azad etdiyi ərazilərində həyata keçirdiyi bərpa-quruculuq işlərindən məmnunluğunu bildirən İran nümayəndə heyəti Ermənistanın bölgədə sabitliyə və təhlükəsizliyə təhdid yarada biləcək fəaliyyətlərindən narahatlığını ifadə edib. Görüşdə ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığın inkişaf perspektivləri, regional təhlükəsizlik məsələləri, eləcə də maraq doğuran digər mövzular ətrafında fikir mübadiləsi aparılıb. Sonda Azərbaycan-İran Birgə Komissiyanın üzvlərinə fəaliyyətlərində uğurlar arzulayan general-polkovnik Z.Həsənov belə görüşlərin ikitərəfli hərbi əməkdaşlığımıza müsbət töhfələr verəcəyindən ümidvar olduğunu bildirib.

"Yeni Müsavat" xatırladır ki, hazırda iki qonşu ölkə arasında diplomatik münasibətlər ən aşağı səviyyədədir. Rəsmi Bakı münasibətlərin əvvəlki qaydaya düşməsi üçün ilk növbədə səfirliyimizə 26 yanvar tarixində edilmiş terror hücumuna adekvat hüquqi qiymət verilməsini, terrorçu və sifarişçinin haqq elədikləri cəzaya çatdırılmasını, habelə səfirlik əməkdaşlarına real təhlükəsizlik zəmanəti verilməsini tələb edir.

Yada salaq ki, bir neçə gün öncə İsrailə səfəri çərçivəsində yerli mediaya müsahibəsində Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev belə bir fikir söyləmişdi ki, əlaqələrin qaydaya düşməsi üçün İrandan müsbət siqnallar gəlməkdədir. Bu nə siqnallardır və birgə hərbi komissiyanın iclasından gözlənti nədir? İran Azərbaycanla əlaqələri bərpa edir?

Bu da diqqətçəkicidir ki, nümayəndə heyətinin başçısı Azərbaycanla sərhədə İranın son günlər guya hərbi qüvvələr yığması haqda məlumatları yalanlayıb, bunu erməni mənbələri tərəfindən biləərəkdən ortaya atılmış yalan və təxribat adlandırıb. Məqsədin İranla Azərbaycan arasında dostluq və qonşuluq münasibətlərinə xələl gətirmək olduğu deyilib.

Dünən isə İran prezidenti ilə Ermənistanın baş naziri arasında sentyabrın 9-da olmuş telefon danışığının detalları barədə İranın vitse-prezidenti Məhəmməd Cəmşidinin tvitterdəki paylaşımındakı aşağıdakı fikir yer alıb: "Bölgədə "3+3" formatından kənar ünsiyyət qurmaq, əcnəbilərlə əməkdaşlıq etmək, onlarla hərbi təlimlər keçirmək və şübhəli səfərlər etmək vəziyyəti daha da çətinləşdirir" (Burada söhbət 11-20 sentyabr aralığında keçiriləcək Ermənistan-ABŞ təlimlərindən gedir).

Bu, şübhəsiz ki, İranın Ermənistanın Qərbi regiona gətirmək cəhdi, ABŞ ilə hərbi təlimlər keçirməsi, Anna Akopyanın Ukraynaya səfəri ilə bağlı açıq şəkildə narazılıq bildirməsidir.

Proseslərin davamı nə vəd edir? İran gerçəkdənmi səhvlərini düzəltmək, Azərbaycanla münasibətləri normallaşdırmaq istəyir? Bəs birgə hərbi komissiyanın iclası hansı zərurətdən doğub və əhəmiyyəti nədən ibarətdir?

**Demokratik Maarifçilik Partiyasının sədri, deputat Elşən Musayev istənilən halda iranlı generalın paytaxtımızda dediyi fikirləri müsbət sayır**: "İranın açıq mövqeyini bilmək və anlamaq üçün hələ proseslərin dinamikasını izləmək lazımdır. Çünki bir açıqlama ilə siyasət dəyişmir və ya həmin siyasətin artıq müsbət mənada dəyişdiyini konkret olaraq söyləmək ən azından indiki mərhələdə sadəlövhlük olardı. Amma bütün hallarda Məhəmməd Əhədinin Bakıda dediyi fikirlər və Ermənistanı demək olar ki, aydın şəkildə ittiham etməsi müsbət haldır və münasibətlərimizin yenidən normallaşması istiqamətində müəyyən təkan rolunu oynaya bilər. Bildiyiniz kimi, İran Silahlı Qüvvələrinin səfərdəki nümayəndə heyətinin rəhbəri Naxçıvan ətrafına qoşun yığılmasını da təkzib etdi və bunu növbəti erməni uydurması adlandırdı. Eyni zamanda bundan daha öncə hörmətli Hikmət Hacıyev də bildirmişdi ki, İrandan müsbət mesajlar almaqdayıq.

Hər halda, maraqlı proseslər baş verir və ümid etmək, inanmaq istərdik ki, İran qonşuluq siyasətinin normal məcraya gəlməsi və münasibətlərin səmimi şəkildə bərpası üçün bütün cəhdləri edəcək. Bunun üçünsə onlar ilk növbədə səfirliyimizdə törədilən terrorun əsl günahkarlarını, icraçılarını, sifarişçilərini tapmalıdırlar.

Biz İrana, öz qonşumuza qarşı heç bir yanlışlıq etməmişik. Hər zaman onlarla münasibətimizdə dürüst olmuşuq. Amma təəssüf ki, İran müəyyən zaman kəsiyində həmin münasibətlərə adekvat davranmadı, lazım olmayan addımları atdı və proseslərin sonrakı inkişafı da hər kəsə məlumdur.

Bütün hallarda general Məhəmməd Əhədinin fikirləri təqdir olunmalı, müsbət hal kimi səciyyələndirilməlidir. Bu, ən azından yaxşıya doğru ciddi bir addımdır və ümid edirəm ki, İranın Azərbaycana münasibətdə sərgiləyəcəyi bundan sonrakı siyasət Əhədinin fikirlərinin davamı istiqamətində inkişaf edəcək".

**AĞ Partiya başqanının I müavini, siyasi şərhçi Əhəd Məmmədli bir sıra suallar ünvanladı**: "Amerika-Ermənistan hərbi təlimləri təkcə Rusiyanı deyil, həm də İranı narahat edib. Düzdür, bu təlimlər genişmiqyaslı deyil, hətta bəlkə hansısa mənada simvolikdir, amma yenə də region üçün narahatedici bir faktordur. Bəlkə də bu, Azərbaycandan daha çox Rusiya və İranı narahat edir. Və bu məqamdan da Azərbaycanın Ermənistana qarşı istifadə etməsi təbiidir. Amerika-Ermənistan təlimləri xəbərindən sonra Azərbaycan dərhal İranla əlaqələrə keçir, müsbət siqnallar verilir. Rusiya siyasi ictimaiyyəti, media sektorunda Ermənistana qarşı sözlər, hədə-qorxular deyilməyə başlayır. Rəcəb Tayyib Ərdoğan və Hakan Fidanın Rusiya və İran təmaslarını da unutmamalıyıq. Qardaş ölkə Türkiyəmiz bu mövcud durumda da Azərbaycana tam dəstəyini verdi. Soçidə Ərdoğan və Putin təkcə taxıl sazişini danışmayıblar, başqa məsələlərdən də danışıblar. Bizim üçün vacib Qarabağ və Zəngəzur dəhlizi mövzularıdır. İran ilk dəfədir ki, Ermənistanı qınaq obyektinə çevirir. Düzdür, Tehran yenə ərazilərin dəyişilməməsindən danışır və bunun onun üçün qırmızı xətt olduğunu söyləyir, lakin "3+3" siyasi formulundan da geri çəkilməyəcəklərini söyləyir. Ərazilərin dəyişilməməsi deyəndə Tehran bununla Bakıya demək istəyir ki, Zəngəzura hərbi müdaxilə qətiyyən etmə. Müsəlman -şiə Azərbaycanın ərazisinin bir hissəsi işğal altında olanda görəsən onda niyə regionumuzda ərazilərin dəyişilməməsi müsəlman-şiə İran üçün qırmızı xətt deyildi?! "3+3" siyasi-formatına gəldikdə isə, region derjavaları İran, Türkiyə və Rusiya, üstəgəl Cənubi Qafqaz respublikalarının arasında qurulan münasibətlərdir və bu duruma kənardan hansısa müdaxiləni Tehran özü üçün qəbuledilməz hesab edir. İranın bu mövqeyi Ermənistan-ABŞ hərbi təlimlərinə bir etiraz notu idi. Tehrana görə "3+3"- dən başqa regionumuza kənardan müdaxilə qəbul olunmazdır. İndiki vəziyyətdə İranın bu mövqeyi Türkiyə, Rusiya, hətta Azərbaycanın da maraqlarına cavab verir və bu yaranan konfiqurasiyasından rəsmi Bakı maksimum istifadə etməyi bacarmalıdır. Düzdür, İran yaxşı olar ki, öz ərazisini Ermənistana silah daşınma tranziti olaraq təqdim etməsin. Heç kəsə sirr deyil ki, Hindistan silahı İrandan Ermənistana daşınır. Əgər Tehran Bakı ilə münasibətlərdə səmimidirsə, həm də öz ərazisindən Ermənistana silah daşınmasına son qoymalıdır".

**Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin eksperti Kənan Novruzov İranın qərar verməkdə tələsməyəcəyini düşünür:** "Son zamanlar İranla əlaqələrdə maraqlı hadisələr müşahidə olunur. Türkiyə bu dövlətlə əlaqələrin nizamlanmasına çalışır. Eyni zamanda Ankara Tehranla Bakı arasındakı mövcud problemlərin aradan qalxmasına səy göstərir. Çünki gərginlik regiona sərf etmir. Bakı ilə Tehran arasındakı gərginlikdən Ankara da narahatdır. Nəzərə almaq lazımdır ki, kənar güclər bu gərginlikdən sui-istifadə edərək regiona müdaxilə etməyə çalışır. Bu isə bölgə ölkələrinin heç birinin ürəyincə deyil. Ermənistanla ABŞ-ın keçirəcəkləri birgə təlim İranı narahat etməmiş deyil. Dediyiniz kimi, bu, çox güman, simvolik addımdır. Amma eyni zamanda ciddi siyasi əhəmiyyətə malikdir. Görünür, Qərb İrəvanı nəinki Moskvadan, həm də Tehrandan uzaqlaşdırmağa çalışır. Birgə hərbi təlimlərin Ermənistanla İran arasındakı münasibətlərə mənfi təsir edəcəyi gözləniləndir. Hərçənd rəsmi Tehran mümkün qədər soyuqqanlı olmağa çalışacaq. Çünki Ermənistan İrana lazımdır. Gələcəkdə İranın regional siyasət kursunda dəyişikliyin olacağını proqnozlaşdırmaq olar. Amma rəsmi Tehran qərar vermək üçün tələsməyəcək".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**



# Casusluq edən 20 yaşlı qızın ilginc səs yazısı

## O, "ekofəallara atəş açın" tələbini də səsləndirib

**Bakı Ağır Cinayətlər Məhkəməsində 20 yaşlı Fidan Əliyevanın cinayət işi üzrə məhkəmə araşdırmaları keçirilir. Fidan Əliyeva Ermənistana casusluqda, bu ölkənin xüsusi xidmət orqanının əməkdaşı vasitəsilə Azərbaycan haqda məlumatlar ötürməkdə ittiham olunur. Ona Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə ittiham verilib. Bu maddənin sanksiyasında 20 ilə qədər və ya ömürlük azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulub. Fidan Əliyevanı bir neçə ay öncə Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) əməkdaşları saxlayıb. Laçın-Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində 2022-ci il dekabrın 12-dən başlanan və 138 gün davam edən etiraz aksiyasının iştirakçıları arasında Fidan Əliyeva da olub. Onun Telegram platforması üzərindən tanış olduğu Ermənistan xüsusi xidmət orqanı əməkdaşına məlumatlar, video və fotoşəkillər göndərib. Görüntülərin bir hissəsinin Bakının müxtəlif yerlərindən olduğu bildirilir. Məhkəmədə ifadə verən Fidan Əliyeva özünü təqsirli bilməyib. Deyib ki, Ermənistana casusluq etməsi haqda ittiham həqiqətəuyğun deyil. Çünki Telegram-da tanış olduğu adamı rus zənn edib. Onun sözlərinə görə, həmin şəxslə də məlumat ötürmək üçün yox, şəxsi məqsədlə tanış olub: "Əvvəl heç onun erməni olduğunu bilməmişəm. Məqsədim adi insan kimi tanışlıq olub. Başqa məqsədim - Azərbaycan barədə məlumat vermək niyyətim olmayıb".**

Foto-video məsələsinə gəlincə, Fidan Əliyeva bildirib ki, qarşı tərəf ondan bəzən müəyyən yerlərdə görüntülərini çəkib göndərməsini istəyirdi, o da göndərirdi. Fidan Əliyevanın işi üzrə məhkəmə araşdırmaları davam edir.

Məhkəmədəki çıxışından sonra sosial şəbəkələrdə Fidan Əliyevanın düşmən xüsusi xidmət orqanı əməkdaşı ilə səs yazısı yayılıb. Həmin səs yazısında Fidan Əliyeva qarşı tərəfdən ekofəallara atəş açmağı tələb edir. Söhbətin davamında isə onu özü ilə İrəvana aparması, orada təhsil almaq istəyində olması kimi fikirlər var.

Ötən il dekabrın 12-dən Laçın-Xankəndi yoluna ekofəal vətəndaşlar aksiya keçirib. 138 gün davam edən aksiyanın iştirakçıları Qarabağdakı qızıl və mis yataqlarında monitorinq keçirilməsini tələb edirdilər.

❑ **Elşən MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

**Cəmi bir həftə öncə Qarabağ separatçılarını "müstəqillik günü" münasibətilə təbrik edən, Azərbaycanla sülh müqaviləsi mövzusunda səhər dediyi ilə axşam söylədiyi bir-biri ilə uzlaşmayan Ermənistanın baş naziri Nikol Paşinyan təzədən "sülh göyərçini" obrazına girib.**

# Paşinyan yenə "sülhpərvər" çuxası geydi - iflas olan telefon diplomatiyası, yoxsa...

## Rəsmi İrəvanın destruktiv davranışları savaşı tətikləyir; Ankara ilə Bakı arasında hərbi əməkdaşlıq yeni fazaya adlayıb; Paşinyan xəbərdarlıqlardan dərs çıxarmasa...



**Polkovnik:** "Çox tezliklə bu bəhanələr və siyasi hoqqabazlıqlara da son veriləcək"
**Politoloq:** "Rəsmi İrəvan vəziyyəti gərginləşdirəcəyi təqdirdə Bakı buna misli ilə cavab verəcək"

Xəbər verildiyi kimi, bu məqsədlə o, ötən şənbə bir nəfəsə 5 paytaxta (Paris, Vaşinqton, Tehran, Berlin, Tiflis) zəng edib. Gələn məlumatlara görə, Paşinyan Azərbaycan Prezidenti İlham Əliyevlə görüşə hazır olduğunu bildirib. Bu, onunla Fransa Prezidenti Emmanuel Makron arasında telefon danışığı zamanı bəlli olub. Təbii ki, "iki bacı" yenə Azərbaycanın daxili işlərinə kobud müdaxilə edərək, uydurma "blokada"dan dəm vurub, Bakının ünvanına ittihamlar səsləndiriblər. Bununla yanaşı, Ermənistan hökumətinin mətbuat xidmətinin məlumatda deyilir: "Nikol Paşinyan 2022-ci il oktyabrın 6-da Praqada və 2023-cü il mayın 14-də Brüsseldə əldə olunmuş razılaşmalara və bütün məsələlərin müstəsna olaraq diplomatik vasitələrlə və konstruktiv atmosferdə həllinə yanaşmaya sadiqliyini təsdiqləyib. Makron sərhədlərdə gərginliyin azaldılmasının vacibliyini vurğulayıb. Baş nazir Nikol Paşinyan Azərbaycan Prezidenti ilə gərginliyin azaldılması istiqamətində təcili müzakirələr aparmağa hazır olduğunu bildirib". Habelə qeyd olunub ki, Makron regionda sülh və sabitliyin bərqərar olması üçün səyləri dəstəkləməyə hazır olduğunu bildirib. İrəvan və Parisin "sülh səyləri"nin nədən ibarət olduğu isə hər kəsə məlumdur.

Gerçək belədir ki, N.Paşinyan Azərbaycanın ərazi bütövlüyü və Qarabağ üzərində suverenliyini tanıması barədə mövqeyindən faktiki imtina edib. Bunu ötən həftə Azərbaycan XİN rəsmən bəyan edib. Bakı Ermənistanın 180 dərəcəli mövqe dəyişikliyi və siyasi riyakarlığına görə yaranacaq qarşıdurmanın, sülh prosesinin sıfırlanmasının məsuliyyətini də haqlı olaraq İrəvanın üzərinə qoyub. Görünür, Azərbaycanın qəti mövqeyi kapitulyant ölkə və onun əsas havadarını qorxuya salıb. Bəs İrəvanın budəfəki sülh oyunbazlığı nəyə hesablanıb? Nikol ağıllanır, yoxsa bu, növbəti blefdir? Belə olduğu halda iki ölkə rəhbərinin xeyli öncə anons edilmiş sentyabr görüşü reallaşacaqmı? Göründüyü kimi, suallar çoxdur... Bu yerdə onu da qeyd edək ki, Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev Bakı ilə təcili danışıqlar üçün İrəvandan heç bir təklif almadıqlarını bildirib. Bundan əlavə, sentyabrın 10-da Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan azərbaycanlı həmkarı İlham Əliyevə zəng edib. Ərdoğan həmçinin sentyabrın 11-də Paşinyanla danışıq aparacağını söyləyib. Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişel isə Hindistanda keçirilən G20 sammiti çərçivəsində görüş zamanı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Azərbaycan-Ermənistan münasibətlərini müzakirə edib. Keçirilən brifinqdə isə cənab Ərdoğan Qarabağda qondarma seçkilərlə bağlı Paşinyana xəbərdarlıq edəcəyini, Ankaranın bunu neqativ qəbul etdiyini bildirib. "Ermənistanın Qarabağda atdığı addımlar düzgün deyil".

Bunu **Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan** "Böyük İyirmiliy"in (G20) sammitinin yekunlarına həsr olunan mətbuat konfransında deyib. "Biz buna müsbət baxmırıq, bunu qəbul etmək mümkün deyil. Sabah (11 sentyabr - red.) böyük ehtimalla Paşinyanla (Ermənistanın baş naziri Nikol Paşinyan - red.) danışıqlar aparacağam. Bu məsələ ilə bağlı onlara xəbərdarlıq edəcəyik və belə bir seçkinin (Qarabağda qondarma seçkilər - red.) qətiyyən mümkün olmadığını bildirəcəyik. Onsuz da görüşdüyüm ölkə başçılarının heç biri bunu qəbul etmir" - Ərdoğan bildirib. "Bölgəni əmin-amanlığa çağırmaqdan başqa bir yol yoxdur" - Türkiyə lideri deyib. Dövlət başçısı hazırda Qarabağda baş verənlərin qəbuledilməz olduğunu və Ankaranın bunu müsbət dəyərləndirmədiyini əlavə edib.

Qeyd edək ki, Ermənistanın Qarabağla bağlı qeyri-konstruktiv davranışları Ankara-İrəvan təmaslarını da dondurub. Bundan əvvəl Nikol Paşinyan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın andiçmə mərasimində iştirak etmişdi. Türkiyə lideri mediaya açıqlamasında demişdi ki, Ermənistan baş nazirinin Azərbaycanın ərazi bütövlüyünü tanıya biləcəkləri ilə bağlı son bəyanatı mühüm əhəmiyyət kəsb edirdi: "Təbii ki, bunu dərk etmək irəliləyişdir. Amma Ermənistanda Paşinyana qarşı çıxanlar da var. Paşinyan hələlik bu məsələdə geri addım atmayıb".

Son davranışları ilə Paşinyan Türkiyənin gözləntilərini də sıfırlamış oldu. Belə bir durumda Türkiyə və Azərbaycan müdafiə nazirlərinin qarşılıqlı səfərləri, həmçinin 11 sentybarda Azərbaycan Respublikası müdafiə nazirinin birinci müavini, Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin Türkiyə Respublikasına işgüzar səfərə getməsi müxtəlif fikirlərə yol açır. Fransa və digər ölkələrin fətvası ilə Ermənistanın hərbi aktivliyinin artması, təxribatlar Şuşa Bəyannaməsinin işə düşməsinə gətirib çıxara bilər, kimi düşüncələr də var. Hesab olunur ki, Ankara ilə Bakı arasında hərbi əməkdaşlıq yeni fazaya adlayıb və Paşinyan xəbərdarlıqlardan dərs çıxarmasa, ölkəsini fəlakətlər gözləyə bilər... Ekspertlər nə düşünür, nə baş verir? Müharibə təhlükəsimi var?

**Hərbi ekspert, ehtiyatda olan polkovnik Üzeyir Cəfərov "Yeni Müsavat"a bildirdi ki, Ermənistanın baş naziri Nikol Paşinyan yenə öz ənənəvi "ampluasında"dır:** "O, sutkanın 24 saatı ərzində az qala 10 dəfə müxtəlif, bəzən bir-birini tamam təkzib edən bəyanatlar, fikirlər söyləyir. 2 il idi ki, səsi çıxmayan Paşinyan, nədənsə sülh müqaviləsi imzalamaq əvəzinə, birdən-birə separatçılara "təbrik" məktubu imzaladı və bu vaxta kimi keçirilmiş bütün danışıqları heçə endirdi. Bununla da növbəti dəfə özünün necə qeyri-ciddi siyasətçi olduğunu bir daha bəyan etdi. Vəziyyəti gərginləşdirən və az qala silahlı toqquşmaya an qaldığı bir zamanda, yenə başlayıb "telefon dilənçiliyinə". Bir gündə 5-10 dünya paytaxtlarına zəng edir və onlar vasitəsilə Azərbaycana ünvanlayır ki, guya bu təcili görüş istəyir və nə isə "önəmli" açıqlamalar verəcək. Əlbəttə ki, bu da növbəti bir hiyləgər gedişdir və əsl erməni xislətini sübut edir. Ona, sadəcə, vaxt lazımdır ki, bəzi işlərini həyata keçirsin. Çox təəssüfedici məqamlardan biri də odur ki, Paşinyanla telefon vasitəsilə, ya üzbəüz görüşən dünya dövlətlərinin rəhbərləri ondan qeyri-ciddi addımlara son qoymasını, silahlı erməni dəstələrini Qarabağdan təcili çıxartmasını tələb etmək əvəzinə, onun sərsəmləmələrinə daha çox diqqət ayırırlar". **Ü.Cəfərov hesab edir ki, Ermənistanın hökumət başçısına inanmaq lazım deyil:** "Biz öz işlərimizi davam etdirməli və həm Ermənistana, həm də separatçılara yönəlik qəti tələblərimizi səsləndirməliyik. Hər ötən gün biz həm Paşinyandan, həm də ona havadarlıq edən adamlardan müxtəlif hoqqabazlıqlar eşidirik və buna son qoyulmasının vaxtı çoxdan çatıb. Ermənilər "aclıq və TİR şousu" ilə də bir daha özlərini rüsvay etdilər. Bunlar bir ildir guya "acdırlar" və nədənsə nə "humanitar fəlakət"ləri var, nə də ölüm-itimləri. Hiyləgərliklərini daha da artırıb dünyadan özlərinə mal-mülk və maliyyə qaynaqları dilənirlər. Paşinyan da baş verənlərin fərqindədir və inanıram ki, çox tezliklə bu bəhanələr və siyasi hoqqabazlıqlara da son veriləcək".

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın son açıqlamalarına gəldikdə, polkovnik qeyd etdi ki, bütün regional proseslərdə qardaş Türkiyənin hər cürə iştirakı olub və olacaq:** "Mənə elə gəlir ki, Müdafiə Nazirliyinin Baş Qərargah rəisinin Türkiyə səfəri zamanı keçiriləcək görüşlər və oradan verilən mesajlar da Ermənistanı Azərbaycanla növbəti toqquşmalara sövq edən dairələr üçün də bir çəkindirici fakor ola bilər. İstisna etmirəm ki, Ərdoğanın Paşinyanla telefon danışığında Ermənistanın avantüralardan çəkinməsi və növbəti faciələri yaşamaması üçün ermənilərin diqqətli olması mesaji da veriləcək".

**Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri, politoloq Tural İsmayılov istisna etmir ki, Ermənistanı qızışdıran xarici güclər var:** "Həmin güclər regionda sülhün, sabitliyin olmasını istəmirlər. Buna görə də Ermənistan üzərindən öz maraqlarını təmin etməyə çalışırlar. Ermənistan hazırda sülhdən çox uzaqdır. Xarici ölkələrin maraqları naminə müharibəni gözə alan bir ölkə ilə necə sülh imzalamaq olar? Bundan başqa, rəsmi İrəvan mövcud reallıqların onun əleyhinə olduğunu yaxşı bilir. Buna görə də prosesləri süni şəkildə dəyişdirməyə çalışır. Nəzərə alsaq ki, sərhədlərin delimitasiya və demarkasiyası həyata keçirilmir, yekun sülh müqaviləsi imzalanmır, onda demək olar ki, geriyə bir variant qalır. Rəsmi İrəvan vəziyyəti gərginləşdirəcəyi təqdirdə Bakı buna misli ilə cavab verəcək. Yəni baş verə biləcək bütün hadisələrin məsuliyyətini Ermənistan tərəfi daşıyır". **Tural İsmayılov:** "Bütün bunların da ən böyük günahkarı birmənalı şəkildə hazırkı Ermənistan hakimiyyətidir. Belə olduqda gərginlik hər an aktiv fazaya keçə bilər". **Baş verə biləcək bütün hadisələrin məsuliyyətini Ermənistan tərəfinin daşıdığını vurğulayan politoloq "Poliqon"a bildirib ki, Ermənistan hər bir fürsətdən istifadə edərək Azərbaycanın ərazi bütövlüyünü təhdid etməyə davam edir:** "Ermənsitan hazırda sülhdən çox uzaqdır. Xarici ölkələrin maraqları naminə müharibəni gözə alan bir ölkə ilə necə sülh imzalamaq olar? Bundan başqa, rəsmi İrəvan mövcud reallıqların onun əleyhinə olduğunu yaxşı bilir. Buna görə də prosesləri süni şəkildə dəyişdirməyə çalışır. Nəzərə alsaq ki, sərhədlərin delimitasiya və demarkasiyası həyata keçirilmir, yekun sülh müqaviləsi imzalanmır, onda demək olar ki, geriyə bir variant qalır. Rəsmi İrəvan vəziyyəti gərginləşdirəcəyi təqdirdə Bakı buna misli ilə cavab verəcək. Yəni baş verə biləcək bütün hadisələrin məsuliyyətini Ermənistan tərəfi daşıyır. Çünki Ermənistan hər bir fürsətdən istifadə edərək Azərbaycanın ərazi bütövlüyünü təhdid etməyə davam edir. Hesab edirəm ki, buna görə də Ermənistan ciddi şəkildə bölgədə gərginləşdirici faktor kimi xarici güc mərkəzlərinin oyuncağı rolunu davam etdirir. Belə olduğu təqdirdə, həm sərhədlərin delimitasiya demarkasiyası, həm Azərbaycanla Ermənistan arasında yekun sülh müqaviləsi ilə bağlı təəssüflər olsun ki, yetkin bir addım atıla bilmir. Bütün bunların da ən böyük günahkarı birmənalı şəkildə hazırkı Ermənistan hakimiyyətidir. Belə olduqda gərginlik hər an aktiv fazaya keçə bilər. Bu baxımdan da vəziyyət getdikcə daha da pisləşir və Azərbaycan öz təhlükəsizliyi naminə Ermənistanı növbəti dəfə cəzalandırmaq hüququnu özündə saxlayır.

**T.İsmayılov Ərdoğan-Paşinyan danışığı, Ankaranın proseslərə aktiv müdaxilə imkanları barədə "Yeni Müsavat"a açıqlamasında bunları söylədi:** "Türkiyə bu gün regional aktordur. Dünyadakı proseslər Türkiyəsiz təsəvvür edilə bilməz. Paşinyan üçün bir yol var, Türkiyə ilə anlaşıb, barış üçün real addımlar atmalıdır. Mən istənilən halda Ərdoğanla danışıqların müsbət nəticələnəcəyinə inanıram".

Yazı dərc olunanadək hələ ki rəsmi məlumat açıqlanmayan cənab Ərdoğanın Paşinyanla telefon danışığına növbəti günlərdə qayıdacağıq...

❑ **E.PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 161 (8297) 12 sentyabr 2023

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

# Xankəndi quldurlardan azad edilmə ərəfəsində - 44 günlük zəfərin zirvəsi...

## Ermənistan sərhəddə həm hərbi eskalasiya riskini artırır, həm də Paşinyanın zəng etmədiyi yer qalmır; İrəvan sülh prosesinə zərbə vursa da, Bakının xanın şəhərinə yolu açılır...

**Ordumuzun Kəlbəcər, Laçın, Füzuli, Ağdam, Naxçıvan və demək olar ki, bir çox istiqamətlərində olan bölmələri atəşə məruz qalır. Sanki işğal illərində olan dövrü xatırladır, hər gün erməni tərəfi atəşkəsi pozur.**



İndi o zamandan fərq budur ki, torpaqların əhəmiyyətli hissəsi azad edilib, yerdə qalan ərazilərdən çıxmayan erməni qoşunları isə fortifikasiya qurğuları quraşdırmağa cəhd edir, səngər qazmağa çalışır və bu təxribatların qarşısı Ordumuz tərəfindən dərhal alınır. Eyni zamanda sərhəddə atəşkəs pozulur. Ermənistanın sülh əleyhinə olan bu addımları bölgədə yeni gərgin faza yaradıb. Düşmən danışıqlar prosesində müəyyən irəliləyiş olduğu vaxtda qeyri-konstruktiv mövqe ilə işi pozmağa başladı. Belə ki, Paşinyan separatçıların saxta bayramını təbrik etdi, sərhəddə təxribatlar intensivləşdi, sentyabrın 1-də dörd erməni hərbçinin məhvi ilə nəticələnən toqquşmalar baş verdi...

Yəni Ermənistan sülh gündəliyinə sadiq olmadığını nümayiş etdirdi. Lakin ötən həftə sonu erməni baş nazir, deyəsən, "Dəmir yumruq" yaxınlaşdığını hiss etdiyi üçün Fransa Prezidenti Makronla əlaqə saxladı, həmçinin Azərbaycan Prezidenti ilə təcili danışmaq istədiyini açıqladı. Hərçənd rəsmi Bakı belə bir təklif gəlmədiyini söylədi. Ermənistan Xarici İşlər Nazirliyi də geridönüş mövqeyinə bənzər bəyanatla çıxış edərək, gərginliyin artmasında İrəvanın maraqlı olmadığını bildirdi. Lakin 27 sentyabr 2020-ci ildə başlayan Qarabağdakı erməni separatizminin məhv edilməsi prosesi birdəfəlik başa çatmalı və Azərbaycan Konstitusiyası bütün ölkə ərazisində tam bərpa edilməlidir.

Ümumilikdə isə Paşinyan təşviş içindədir. Buna başqa ad vermək olmaz. Çünki əgər o, bir gün ərzində 5 dövlətin siyasi lideri ilə (Fransa, Almaniya, Gürcüstan, İran və ABŞ dövlət katibi) telefon əlaqəsi yaradırsa, regiondakı vəziyyətin gərginliyindən danışırsa, Azərbaycanı ittiham etməyə başlayırsa, həyəcanlı bəyanatlar verirsə, deməli, təşviş içindədir. Əslində Azərbaycanla şərti sərhəddə qoşunlar toplayan da Ermənistandır, Qarabağda erməni separatçılarını ruhlandıran da, Azərbaycana qarşı intensiv diplomatik və hərbi müstəvidə təxribatlar həyata keçirən də...O zaman Nikol 44 günlük müharibədə olduğu kimi niyə ora-bura zəng edir?

Maraqlı detal isə onun Putinə zəng etməməsidir. Təbii ki, bu da son iki həftə ərzində Moskva-İrəvan xəttində misli görünməmiş kritik gərginlikdir. Beləliklə, hər yerə zəng edən də, müharibə riskini artıran da Ermənistandır. Bu da sülh prosesinə vurulan növbəti ağır zərbədir. Oktyabrda Qranada şəhərində görüş gözlənilir, amma bu gedişatla danışıqlarda müsbət nəticə əldə oluna bilməz. Rəsmi Bakı sentyabrın 9-da bir daha bəyan etdi ki, bölgədə sülh və sabitliyə nail olmağın yeganə yolu erməni silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindən qeyd-şərtsiz və tamamilə çıxarılması, qondarma rejimin buraxılmasıdır. Bir sözlə, Vətən müharibəsi davam edir və bütün Qarabağda suverenliyin təmin olunması işini başa çatdırmaq üçün mübarizənin yeni mərhələsi başlanır.

**Milli Cəbhə Partiyasının sədr müavini Məhəmməd Əsədullazadə hesab edir ki, Azərbaycan konstitusiya quruluşunu müdafiə etmək üçün Xankəndi və ətrafını separatçılardan təmizləməlidir. Onun fikrincə, Paşinyan Makrona Əliyevlə təcili görüşmək niyyətini açıqlayıb:** "Çox güman ki, Makrondan vasitəçi olmağı xahiş edib. Demək olar ki, Fransa və Ermənistan Azərbaycanın hərbi üstünlüyünün fərqindədirlər. Artıq Fransa rəhbəri geri addım atdı. Parisin Azərbaycana qarşı sərt mövqeyi fiaskoya uğradı. Təbii ki, Azərbaycanın apardığı diplomatik iş Makronun mövqeyini dəyişməsinə gətirib çıxardı.

Proseslər Azərbaycan Ordusunun yaxın vaxtlarda Xankəndi, Ağdərə və Xocavəndə daxil olacağını göstərir. Çünki danışıqlar üçün heç bir siyasi ortam yoxdur. Ermənistan rəhbərliyi və dəstək verdiyi separatçılar Azərbaycanı qəbul etmirlər. Ona görə də hərbi təxribatlara əl atırlar. Ermənistan tərəfi bunun qarşısını almaq üçün təxribatlara gedəcəksə, Azərbaycan çox ciddi irəliləyişlər əldə edəcək".

**Siyasi şərhçi Əziz Əlibəyli isə düşünür ki, ümumiyyətlə, Ermənistan Azərbaycanla bağlanacaq sülh müqaviləsində Qarabağda erməni varlığı və onun ələhiddə hüquqları məsələsini saxlamağa çalışır. Onun sözlərinə görə, burada məqsəd gələcəkdə erməni kartından Azərbaycana qarşı istifadə etməkdir:** "Bəs Azərbaycana qarşı istifadə ediləcək olan raketlər İrəvandan fitili atəşlənsə, Azərbaycan İrəvandakı həmin leqal hədəfləri vurmayacaqmi?

Əslində Ermənistan məhz buna çalışır ki, nəticədə Azərbaycanı mülki əhaliyə qarşı silah işlətməkdə, yəni müharibə cinayəti törətməkdə ittiham edə bilsin. Prezident Əliyev Ermənistanın ordusuna imkan verməyəcəyini, harada olmasından asılı olmayaraq, Azərbaycan üçün təhlükə yaradan hərbi texnikanı məhv edəcəyini bəyan edib. Doğru olanı da budur. Azərbaycanla potensial müharibə Paşinyan üçün hakimiyyət dəyişikliyi deməkdir. Və ya Rusiyanın bu vəziyyətdən faydalanmaq ehtimalı yaranır".

Azərbaycan Respublìkasının Medìanın İnkìşafı Agentlìyìnìn malìyyəsì əsasında nəşr olunur. Yazını hazırladı: Emìl SALAMOĞLU

# Ermənistanın növbəti aqressiyası hara yönəlib?..

**Adətən Ermənistan harasa silah-sursat toplayanda, canlı qüvvə cəmləşdirəndə ilk ağla gələn bu olur ki, ermənilər Azərbaycana qarşı hərbi kampaniyaya, ən azı hərbi təxribatlara hazırlaşırlar.**

**Hüseynbala SƏLİMOV**



Hazırda belə proseslər müşahidə olunmaqdadır. Amma burada bir məqam var: indi ermənilər nədənsə ehtiyat etdiklərindən, hətta qorxduqlarından haralarasa hərbi-texnika və canlıq qüvvə cəmləşdirə bilərlər. Əlbəttə, indi dediklərimiz bir ehtimaldır, amma bu qəbildən olan mülahizələri də istisna etmək olmaz.

Birincisi, ona görə ki, ermənilər 44 günlük müharibədə elə bir zərbə alıblar ki, çətin, Azərbaycana qarşı hərbi kampaniyaya başlamağa cəsarət etsinlər. İkincisi, Azərbaycanda Qərbi Azərbaycanla, Zəngəzur dəhlizi ilə bağlı gedən söz-söhbətlər, xüsusən də Zəngəzur dəhlizinin nəyin bahasına olursa-olsun açılacağı haqda səslənən bəyanatlar Ermənistana da gedib çıxır. Üçüncüsü, Rusiya ilə Ermənistan arasında siyasi "çat"lar getdikcə dərinləşməkdədir. Rusiyanın Nikol Paşinyanı devirəcəyi haqda, hətta bunun üçün "Vaqner"çilərdən istifadə edəcəyi haqda söhbətlər dolaşır. Ermənilər bundan da ehtiyatlanıb silahlana bilərlər. Ən əsası isə, haylar ehtiyat edirlər ki, Azərbaycan Ermənistan-Rusiya münasibətlərinin soyuqlaşmasından istifadə etmək fikrinə düşə bilər, bu isə bu dəfə artıq Ermənistanın sonu ola bilər...

Bir daha deyirik ki, bütün bunlar bir ehtimaldır. Amma biz güman etmirik ki, ermənilər o qədər cəsarətlənsinlər ki, Azərbaycana hücum etmək fikrinə düşsünlər. Son günlər ermənilərin kiçik hərbi təxribatlar törətməsinin, Azərbaycanla sərhəddə qoşun toplamasının bir səbəbi də vardı: Bakının keçmiş Dağlıq Qarabağda növbəti qondarma "seçkilərə" imkan verməyəcəyi deyilirdi. Həm də İrəvanın Azərbaycana hücum etmək fikri ciddi olsaydı elə bugünlərdə erməni baş naziri N.Paşinyan Prezident İlham Əliyevlə təcili görüşlərə və danışıqlara hazır olduğunu bəyan etməzdi. Amma bu bəyanat üç kanalla yayıldı, onun hətta Fransa prezidenti ilə görüşdə səsləndirildiyi bildirildi...

Əlbəttə, vəziyyət mürəkkəbdir. Bunu heç kim inkar etmir. Amma çətinliklə olsa da, Bakının tələblərini hamı qəbul edir. Bugünlərdə hətta Rusiyanın Ağdam yolundan istifadə edəcəyi haqqında da xəbərlər yayıldı. Bu, separatçılara ciddi bir siqnal olacaq.

Biz dəfələrlə yazmışıq ki, separatçılar o vaxt Azərbaycanla reinteqrasiya haqqında ciddi fikirləşəcəklər ki, Rusiya və xüsusən də Rusiya sülhməramlılarının rəhbərliyi bunu etmiş olsun. Amma son otuz ildə Moskva Dağlıq Qarabağın Azərbaycanın ərazisi olğunu desə də özünü reallıqda elə aparır ki, sanki bu ərazi Ermənistanın anklavıdır: təsadüfi deyil ki, "sülhməramlı"ların hər yeni rəhbəri ilk olaraq İrəvana yollanır və oradan təlimat alır, ən əsası isə onlar bütün əlaqələrini İrəvanla qururlar, Bakı ilə isə uzaqdan-uzağa, formal əlaqə saxlayırlar.

Ona görə də bir daha deyirik ki, Moskvanın Ağdam yolundan yük daşımasının mühüm əhəmiyyəti ola bilər. Bunun bir önəmini qeyd etdik. Digəri isə bu olacaq ki, bir daha təsdiqlənəcək ki, keçmiş Dağlıq Qarabağa qarşı heç bir blokada-filan yoxdur, bu, sadəcə, ermənilərin və keçmiş Dağlıq Qarabağ separatçılarının uydurmasıdır...

Yaxın vaxt üçün nə gözlənir? Payızda bir neçə görüş olamalıdır. Avropa İttifaqının vasitəçilyilə daha bir görüş olmalıdır. Bunu ötən görüş zamanı Şarl Mişel bəyan etmişdi. Daha bir görüş İspaniya şəhəri Qranadada gözlənir. Əlbəttə ki, Avropa ölkələrinin bu otuz ildə apardıqları siyasət onlara elə də böyük ümid bəsləməməyə əsas verir. Amma biz fərqli, başqa bir planetdə yaşamırıq - hamımız Yer kürəsinin sakinləriyik, odur ki, çətin olsa da, Avropa ilə, Amerika ilə də işləməliyik. O ki qaldı Rusiyaya, düşünürük, onun tərəfindən narahat olmağa dəyməz. Moskva hazırda Ermənistanı, xüsusən də onun baş naziri Nikol Paşinyanı cəzalandırmaq üçün yollar axtarır. Biz bundan faydalana bilərik, amma əlbəttə ki, yüz ölçüb, bir biçəndən sonra. Paşinyanın hərbi ritorikasına, son sayıqlamalarına gəldikdə isə mümkündür, bu, İrəvanda keçiriləcək mer seçkilərilə bağlıdır - axı Paşinyan həm də İrəvanın ağsaqqallar şurasının sədri olmaq istəyir...

YENİ MÜSAVAT
N 161 (8297) 12 sentyabr 2023



# Təndirdən indi çıxmış köşə

Zamin HACI
zaminhaci@gmail.com

"Mal yox oğru apara, iman yox şeytan apara"
*(Azərbaycan ata sözü)*

**Ötən köşəmizi əziz Hindistan torpaqlarına həsr etmişdik, bu münasibətlə yazar dostumuz Vüsal Bağırlı bir xatirəsini göndərmişdir, öncə onu oxuyaq: "Sovet vaxtı bizim kəndin camaatı Mehdi Hüseynzadə adına üzümçülük sovxozunda işləyirdi. Orada Bəhram adlı briqadir məhsul planını (indi bunun nə demək olduğunu izah etmək lazım gələn böyük nəsil yetişibdir, lakin yerimiz yoxdur - Z.H.) vaxtından qabaq yerinə yetirmişdi deyə, əmək qabaqcılı olmuşdu.**

Ona mükafat kimi turist putyovkası gəlir, özü də birbaşa Moskvadan. Xarici ölkəyə 1 aylıq səyahət, siyahıda seçim üçün 2 ölkənin adı varmış: Çexoslovakiya və Hindistan. O vaxt da Cimi, Zita-Gita, Xatubanın-filanın dəb dövrü, kişi düşünmədən seçimini edir, Hindistana yollanır. Bir aydan sonra Bəhram qayıdır - qapqara, kömür kimi. Camaat yığışır, soruşurlar, ay Bəhram, Hindistan necə yer idi, xoşuna gəldimi. Bəhram da qayıdır ki, klubda Hindistan filmi göstərənlərin var-yoxunu ... Elə bilirdim bağ belə, bostan belə, gül kimi Çexoslovakiyanı qoyub Hindistana getdim. Nə zibil yer imiş, ə, ora?! Ölünü çaya atırlar, inək küçənin ortasına s...r , i....yə adi tualet də tapılmır, camaat acından ölür" (son cümlələrdə bəzi sözləri nöqtələrlə yazmağa məcburam, dərs ili başlanır, yazı məktəblilərin əlinə keçər, biabır olarıq - Z.H.)

Lakin insafən qeyd edək ki, hazırda Hindistan böyük inkişaf yolu keçib, ən azı Aya şimal qonşumuz Rusiyadan daha uğurlu aparat göndərdilər. Keçən ay rusların aparatı Aya çırpılıb darmadağın oldu, hindlilərin qurğusu isə sakitcə eniş yapdı, hazırda orada muzıkalnı kino çəkirlər. Bu da Putinin acizliyinin növbəti əlamətidir.

Kino demişkən, mədəniyyət sferamızda böyük, inqilabi dəyişiklik baş verib: kino idarəsinə baxan Rüfət Həsənovu işdən çıxarıblar. Nəhayət, milli kinomuz dəhşətli inkişaf yoluna qədəm qoyacaqdır. Ümid eləyək 5 ilə 1 kino da çəkilməsin, çünki Rüfət müəllim müdir olanda 3 ilə 1 kino çəkilmirdi, bu isə respublikamızı dünya mədəniyyət aləmində güclü şəkildə reklam edirdi. Kinoda yeni janr yaranmışdır, hamı buna "Azərbaycan kinosu" deyir, hətta Oskar-zad verirlər, təvazökarlıq edib almırıq. Janrın əsas xüsusiyyəti gözəgörünməzliyidir. Bilet alıb girirsən salona, işıqlar sönür, 2 saat rahat yatırsan, sonra gərnəşib bayıra çıxırsan. Azərbaycan kinosu bundan ibarətdir. Əlbəttə, gözəgörünməz olmaq böyük hikmətdir, hər canlıya, hər sənətə, hər sənətkara qismət olmur. Çin Dao fəlsəfəsində bununla bağlı çox gözəl fikirlər vardır: "Ən böyük müdriklik heç nə etməməkdir". Şəxsən mən hesab edirəm ki, bizim Binəqədi icra hakimiyyəti Çin daosizm fəlsəfəsini rayon ərazisində uğurla tətbiq edir, çün, biz onların üzünü görmürük, fəaliyyətləri haqda da hər hansı məlumatımız yoxdur.

Əslində bir sakinin öz rəhbərini görə bilməməsi, tanımaması sivil dünyada inkişaf əlamətlərindən sayılır, istərdim bunu da dəftərin qırağında harasa yazasınız. Məsələn, Avropada belədir, bir norveçlidən soruşsan, heç bilməz baş naziri kimdir. Hazırda biz də baş nazirimizi tanımırıq. Deməli, hardasa Osloda yaşamaqdayıq. Əlbəttə, hamımız şərti Osloda yaşamırıq, bəzilərimiz Parisdə, bəzilərimiz Stokholmda, bəzilərimiz də Mumbayidə (Bombeyin təzə adıdır) ömür sürür. İnşallah, bir gün qismət olar, bunların mənasını da izah edərəm.

Sonda fürsətdən istifadə edib AXCP, Müsavat və REAL-ı qeydiyyata alınmaqları münasibətilə təbrik edirəm. Gördünüz? Mən yazmışdım axı, darıxmayın, tələsməyin, prosesdən həzz alın, hər şey vaxtında olacaq. Yoxsa mənasız səs-küy salmışdılar, "avtoritarizmdir, ay nə bilim, bizi bağlayırlar"... Düşmənləri sevindirirdilər. Anar müəllim vaxtilə bunu gözəl yazmışdır: "Tələsmə, Zaur, tələsən təndirə düşər".





# Son 2 həftə: saxta rejimin bir əməliyyatlıq canı qalıb - gözlər Bakıda

## Müharibə dayandığı yerdən davam etsə, Xankəndidə 24 saata bir silahlı quldur da qalmayacaq! 9 sentyabr "seçki" şousu separatçıların sonluğunu tezləşdirəcək...

**15 gün sonra, sentyabrın 27-də 44 günlük Vətən savaşına başlamağımızın üçüncü ildönümü tamamlanacaq. Əfsus ki, ötən müddətdə bölgədən barıt qoxusu çəkilməyib. Çünki "Dəmir yumruq"dan sonra da havadarlarının vədlərinə aldanan Ermənistan rəhbərliyi haqq elədiyi məğlubiyyətdən dərs götürməyib və revanşist hisslərlə yaşayır. Xaricdən silah-sursat alıb hücum ordusu qurmaq planları üzərində işləyir. Hərbi qələbəmizi sıfırlamaq üçün yüz oyundan çıxır.**

Kapitulyant tərəfi buna ən çox erməni lobbisi və erməni katolik kilsəsi, bəzi xarici güclər, xüsusən də Bakıya inadla təzyiq eləməyə çalışan Fransa təşviq edir. Belə getsə, bu il də sülh müqaviləsi imzalanmayacaq. Hər halda, bundan ötrü baş nazir Nikol Paşinyanın "Qarabağ Azərbaycandır" söyləməsi kifayət deyil, gərək "A"dan sonra "B" də söyləsin, yəni Azərbaycanın 5 məlum baza prinsipi əsasında sülh müqaviləsinə imza atsın.

Hələlik bu, əlçatmaz görünür. Daha bir səbəbə: Paşinyan üç ilə yaxın müddətdə öz xalqını sülhə hazırlamayıb. Əksinə, erməni cəmiyyətinin bir az da radikallaşdığı müşahidə olunur. Demək, növbəti genişmiqyaslı hərbi toqquşma qaçılmaza çevrilə bilər. Çünki diplomatiyanın aciz qaldığı yerdə işə hərbçilər qarışır...

*****

Yaranmış durumu şərh edən siyasi təhlilçilərdən birinin fikrincə, Ermənistan hökuməti elə bilir ki, Azərbaycanla yeni qarşıdurma, yaxud müharibə ona bu dəfə beynəlxalq dəstəyin verilməsinə gətirəcək. Amma kim verəcək bu dəstəyi, əgər üstəlik, Azərbaycanın Ermənistana hücum etmək niyyəti yoxdursa? Məgər BMT TŞ-dəki 18 avqust fiaskosu dərs olmadı?

Prezident İlham Əliyev bu xüsusda qəti sözünü sentyabrın 1-də ABŞ-ın dövlət katibi Entoni Blinkenlə telefon danışığı zamanı bir daha bəyan edib. Azərbaycanın suverenliyi, ərazi bütövlüyü məsələsində və separatçı-quldur rejimə münasibətində heç bir güzəşti olmayacaq! Bakı şərt qəbul eləmir, eləməyəcək! İllah da torpaq bütünlüyümüzü sual altına qoyacaq şərt və ya təklif yaxına buraxılmayacaq. Azərbaycan rəhbərliyi habelə dönə-dönə bəyan edib ki, öz ərazisində "boz zona"nın mövcudluğuna uzun müddət dözməyəcək.

Əslində saxta rejimin bir lokal əməliyyatlıq canı qalıb. Uzağı, 24 saata "Şeytan yuvası" ram ediləcək. Bunu Moskvada da, Vaşinqtonda da, Brüssel və Parisdə də yaxşı bilirlər. Ağlı başında olan ermənilər də durumun fərqindədirlər. Sentyabrın 9-da Xankəndidə düzənlənən "prezident seçkisi", bir gün sonrakı "andiçmə" şousu isə xuntaçıların acı sonluğunu yalnızca yaxınlaşdıracaq...

*****

"Ola bilsin ki, ermənilər hətta 2-ci Qarabağ müharibəsinin başlanmasının ildönümündə (27 sentyabr 2023 - red.) bir növ öz məğlubiyyətlərinin hansısa şəkildə qisasını almağı xəyal edirlər. Görünür, Fransa və Hindistandan aldıqları hərbi texnika İrəvanı ruhlandırıb".

**Bu, sərhəddəki durum haqda danışan analitiklərdən birinin təxminidir.**

"Məsələ heç də Rusiyanın Qarabağda öz üzərinə düşən öhdəlikləri yerinə yetirməməsində deyil. Ondadır ki, artıq reallıq dəyişib. Bakı öz mövqeyində maksimum ardıcıldır və konkret nəticəyə - öz ərazi bütövlüyünün bərpasına hədəflənib".

Bunu isə **rusiyalı politoloq Stanislav Pritçin** erməni mediasına müsahibəsində söyləyib.

"Yeni Müsavat" xəbər verir ki, politoloq bölgədəki hadisələrin sonrakı mümkün gedişatı ilə bağlı qeyd edib ki, "söhbət çox böyük boz ərazidən gedir və heç kim vəziyyətin necə cərəyan edəcəyini deyə bilməz".

Onun sözlərinə görə, Ermənistanla Azərbaycan arasında münasibətlərdə artan gərginliyin xarakterinə əsasən hərbi ssenariləri də istisna deyil.

*****

"Hazırda Nikol Paşinyan üçün olduqca gərgin bir dövr yaşanır. Azərbaycanla gərgin situasiya fonunda Ermənistan daxilində ağır durum mövcuddur. Bu gərginlik isə Paşinyanın manevrlər edərkən buraxdığı ciddi səhvlərlə bağlıdır".

**Azərbaycanlı politoloq Zaur Məmmədov bu fikirdədir.**

O da bu qənaətdədir ki, Paşinyan erməni cəmiyyətini sülhə hazırlamaq əvəzinə əks istiqamətdə iş aparıb: "Nəticədə Qarabağın dağlıq hissəsindəki qondarma rejimdə Paşinyanın rəqibləri hakimiyyəti ələ aldı. Ardınca onlar Ermənistanda hakimiyyət uğrunda mübarizəyə başlayacaq. Bununla hərbi canilər Robert Köçəryan və Serj Sərkisyan hakimiyyət uğrunda mübarizəyə qoşulur. Onlar hər cür imkanlardan istifadə edəcəklər ki, Paşinyanı hakimiyyətdən uzaqlaşdırmaqla yanaşı, həbsinə də nail olsunlar".

**Politoloqa görə, hazırkı vəziyyət bölgəni yeni müharibəyə aparır:** "Azərbaycan sözsüz ki, səbirlə danışıqlarda nəticələri gözləyir. ABŞ dövlət katibi Entoni Blinken bununla bağlı Azərbaycandan vaxt istəmişdi. Amma Paşinyan ABŞ-ın vasitəçiliyi ilə olan danışıqları pozdu. Hazırda isə Rusiyanın iştirakı ilə danışıq gedir. Bu, Ağdam-Xankəndi yolunun açılması, Laçın sərhəd-keçid məntəqəsində yeni parametrlərlə bağlıdır. Əgər separatçılar danışıqlara qayıtmayacaqlarsa, bu, yeni hərbi əməliyyatların başlaması demək olacaq".

**Zaur Məmmədova görə, Azərbaycanla Ermənistan arasında sülh danışıqları müstəvisində sentyabr-oktyabr aylarında görüşün olması gözlənilir və bu görüşün nəticəsi çox şey deməyə əsas verəcək:** "Güman ki, Paşinyan Azərbaycanla sülh müqaviləsi imzalamayacaq. Belə olan halda Azərbaycan ortaya qəti mövqe qoyacaq. Adekvat yanaşma olmasa, Azərbaycan payızda məsələni həll edə bilər".

**Öz növbəsində digər rusiyalı politoloq Sergey Markov hesab edir ki, Qafqazda böyük hadisələr yaxınlaşır.** "Və belə bir məqamda Ermənistan lideri Paşinyan ancaq Rusiyaya qarşı daha çox pislik etmək barədə fikirləşir. Çoxlarının əminliyinə görə, tezliklə bütün Qarabağ Azərbaycanın tam nəzarətinə keçəcək", - deyə o əlavə edib.

Proseslər buna yön alıb...

❑ **Siyasət şöbəsi, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 161 (8297) 12 sentyabr 2023

# "Gərginliyin artması hər iki ölkənin maraqlarına ziddir" - politoloqdan İran-Azərbaycan münasibətlərinə baxış

## Elxan Şahinoğlu: "İran indiki həssas məqamda öz generallarını Bakıya Qərbi Zəngəzura görə göndərib, nəbzimizi yoxlayırlar"

**İran Qarabağı Azərbaycanın bir hissəsi hesab edir. "Yeni Müsavat" APA-ya istinadən bildirir ki, bu barədə İran Xarici İşlər Nazirliyinin sözçüsü Nasir Kənani mətbuat konfransında Azərbaycanın Qarabağ bölgəsində qondarma rejimin sentyabrın 9-da keçirdiyi "seçkilər" barədə suala cavabında deyib.**

"İranın mövqeyi aydın, sabit və şəffafdır. İranın Qarabağ ərazisi ilə bağlı mövqeyi heç kimdən gizli deyil. Qarabağ Azərbaycan Respublikasının bir hissəsidir və bu bölgənin sakinlərinin hüquqları və təhlükəsizliyi konkret çərçivədə müəyyən edilməli və təmin edilməlidir. Bu bizim aydın mövqeyimizdir. Biz hər zaman ölkələrin ərazi bütövlüyü, milli suverenliyinə hörmətlə yanaşmağın və hər hansı gərginlik yaradan hərəkətlərdən çəkinməyin vacibliyini vurğulayırıq", - Kənani qeyd edib.

XİN rəsmisi əlavə edib ki, ölkəsi beynəlxalq səviyyədə tanınmış sərhədlərdə istənilən dəyişikliyə qarşıdır.

Hər halda, Tehranın Qarabağ separatçılarının "seçki" tamaşasını pisləməsi təqdirolunan addımdır. Münasibətlərin dünəninə baxsaq, İran TIR-larının Ermənistan nömrə-nişanları ilə separatçılara yardım, yanacaq daşıması ilə müqayisədə irəliyə doğru çox müsbət yolun qət edildiyini söyləmək olar. Ümid edək ki, bu siyasət Tehrandakı Azərbaycan səfirliyinə və millət vəkilimizə qarşı terror törədənlərə münasibətdə ədalətli qərarın verilməsinə də gətirib çıxaracaq.

Qeyd edək ki, sentyabrın 9-da Bakıda Azərbaycan-İran birgə hərbi komissiyasının iclası keçirilib. İclasda iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan general-mayor Məhəmməd Əhədinin rəhbərlik etdiyi İran İslam Respublikasının Silahlı Qüvvələrinin nümayəndə heyəti sentyabrın 10-da Hərbi Qənimətlər Parkına baş çəkərək Vətən müharibəsində Azərbaycanın düşməndən qənimət götürdüyü texnika ilə tanış olub. Sonra hərbi heyət açıq səma altında salınan parkda nümayiş olunan atıcı silahlar, ağır texnikalar, raket kompleksləri, hərbi nəqliyyatlar və digər sursatlarla yaxından tanış olaraq müxtəlif xatirə fotoları çəkdiriblər.

Bu toplantı Bakı ilə Tehran arasındakı gərginliklərin səngiməsi baxımından faydalı hesab olunur. Xatırladaq ki, bir neçə gün əvvəl İranın Azərbaycanla sərhəd bölgələrə hərbi texnika və canlı qüvvə topladığı barədə məlumatlar, videokadrlar yayılmışdı. Lakin Bakıya gələn heyətin rəhbərliyi sözügedən məlumatı təkzib etdi. İranın Azərbaycanla sərhədə qoşun toplaması barədə məlumat tamamilə əsassızdır. Bunu APA-ya açıqlamasında İran İslam Respublikası Silahlı Qüvvələri Baş Qərargahının Beynəlxalq Əlaqələr və Müdafiə Diplomatiyası İdarəsinin rəisi general-mayor Məhəmməd Əhədi bildirib. M.Əhədi deyib ki, hazırda İran hərbi nümayəndə heyəti birgə komissiyanın iclasında iştirak etmək üçün Bakıda səfərdədir: "Nümayəndə heyəti iclasdan əvvəl Azərbaycanın müdafiə naziri Zakir Həsənovla görüşdə keçirib və görüşdə hərbi sahədə əməkdaşlığın gücləndirilməsi barədə razılığa gəlinib".



Şübhəsiz ki, Ermənistan və onun havadarları Azərbaycanı İranla üz-üzə qoymaq üçün hər cür fitnə-felə əl atır. Dəfələrlə eyni cəhdlərə Bakı ilə Moskva arasında gərginliyin tətiklənməsindən ötrü əl atılıb, ancaq İrəvan məqsədinə çatmayıb, hətta özü Rusiyanı qəzəbləndirən dür, bir sıra hallarda Ermənistanın sərhədlərini özünün "qırmızı xətti" sayan İran rəsmi dairələri də ermənilərin təsiri altında Azərbaycanla münasibətləri gərginləşdirməyə meyillənirlər. Rəsmi Bakı bir qayda olaraq bütün qonşuları ilə normal münasibətlər qurmaq siyasətinə üstünlük verir. Təsadüfi deyil ki, 8 sentyabrda Prezident İlham Əliyev Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun (M-3) bir hissəsinin əsaslı təmiri ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun (M-3) 217-ci kilometrdən 243-cü kilometrədək olan hissəsinin əsaslı təmiri məqsədilə Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 7,0 (yeddi) milyon manat ayrılıb. Göründüyü kimi, Azərbaycan İranla yolların qapanmasında deyil, daha işlək olmasında maraqlıdır. Ancaq dövlətimiz eyni zamanda milli və dövlət maraqlarından da zərrə qədər geri çəkilməyəcəyini dəfələrlə bəyan edib. Bu mənada İranla münasibətlərimizdə prioritet sayılan məsələlər var. Bəzi ekspertlər İranla münasibətlərdə sərt ritorikanın saxlanmasını, digərləri isə Ermənistanı sevindirə biləcək hərəkətlərə yol verilməməsini zəruri sayırlar. İndiki durumda necə davranmalıyıq: İranla döyüşək, yoxsa...

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a bildirdi ki, Azərbaycan-İran münasibətlərində sualların sayı azalmayıb**: "Buna baxmayaraq, gərginliyin artması hər iki ölkənin maraqlarına ziddir. Ermənistanla müharibə şəraitində olduğumuzdan düşmən ölkə Azərbaycan-İran münasibətlərinin daha çox gərginləşməsində maraqlıdır. Ona görə də "İran Azərbaycanla sərhədə qoşun toplayıb" xəbərinin haradan qaynaqlanması mənim üçün maraqlıdır. İstisna etmirəm ki, bu erməni dezinformasiya mərkəzinin Azərbaycanın informasiya məkanına atdığı xəbərlər silsiləsindəndir. Ancaq əgər bu dezinformsiyadırsa, bunu birinci İran rəsmi strukturları təkzib etməli idi. Təkzib etməyiblərsə və ya gec təkzib ediblərsə, demək, Tehran bu xəbərin bir müddət yayılmasında maraqlı olub. Məqsədləri öz məntiqlərinə görə, bu yolla Azərbaycanı Qərbi Zəngəzurla bağlı planlardan çəkindirməkdir".

**E.Şahinoğlu qeyd etdi ki, İrandakı strukturlar hələ də Zəngəzur məsələsini hallandırmaqda davam edirlər**: "Azərbaycan Zəngəzur dəhlizinin açılmasını istəyir və bu, heç bir ölkənin, o cümlədən İranın maraqlarına zidd deyil. Ancaq Tehranda bunu belə qəbul edirlər ki, yol açılsa, guya İran-Ermənistan sərhədi bloklanacaq və bu istiqamətdə yük daşına bilməyəcək. Yanlış məntiqdir. Azərbaycanın Qərbi Zəngəzuru ələ keçirmək kimi planı yoxdur. Ancaq orası da var ki, Ermənistan Qarabağı Azərbaycan ərazisi kimi tanımaqdan imtina edərsə, Azərbaycan da Qərbi Zəngəzuru Ermənistan ərazisi kimi tanımayacaq. Ona görə də Tehran bu məsələdə Azərbaycanı hədələməkdənsə, Ermənistanı ağıllandırmalıdır ki, bu ölkə Qarabağ daxil, Azərbaycanın ərazi bütövlüyünü tanısın və bu əsasda sülh sazişi imzalansın, əks halda, bölgədə müharibə ehtimalı azalmayacaq". **"Atlas" rəhbəri bir məqama da xüsusi diqqət çəkdi**: "Tehran anlamalıdır ki, Azərbaycanı hədələdikcə, qarşısında bizimlə yanaşı Türkiyəni də görəcək. Ankara İranla münasibətləri gərginləşdirmək istəmir. Türkiyə ilə hərtərəfli əməkdaşlıq Qərbin sərt sanksiyaları altında olan İranın da maraqlarına xidmət edir. Ancaq Ankara Tehranın anti-Azərbaycan siyasətinə seyrçi qalmayacaq. Tehranda bilməlidirlər ki, Azərbaycana qarşı təxribat edərlərsə, Türkiyə müdaxilə edəcək. Bu haqda Türkiyənin xarici işlər naziri Hakan Fidanın da konkret açıqlaması olub. Tehran Azərbaycanla Türkiyə arasında mövcud olan "Şuşa Bəyannaməsini" də unutmasın. Tehran bölgədəki problemlərin 3+3 (Azərbaycan, Gürcüstan, Ermənistan + Türkiyə, İran, Rusiya) formatında həllinə üstünlük verir. Bunu İran prezidenti İbrahim Rəisi son telefon danışığında Ermənistanın baş naziri Nikol Paşinyana da xatırladıb. Azərbaycan bu təşəbbüsü ilk gündən dəstəkləyib. Bu təşəbbüsün əleyhinə çıxan elə Ermənistandır. Bu məsələdə də Tehranın sözü varsa, Ermənistan hakimiyyətinə ünvanlanmalıdır. Digər tərəfdən, Ermənistanda ABŞ-la birgə hərbi təlimlər başlayıb. Amerika İranın başlıca düşmənidir. İbrahim Rəisi Nikol Paşinyanla son telefon söhbətində yumşaq şəkildə bununla bağlı ona xatırlatma edib. Halbuki Tehran daha sərt formada İrəvana xəbərdarlıq edə bilərdi. Misal üçün, Rusiyanın reaksiyası daha sərtdir. İran rəsmiləri Azərbaycanın İsraillə əməkdaşlığına qarşı yüzlərlə açıqlama veriblər. Halbuki, Azərbaycan-İsrail tərəfdaşlığı İrana qarşı yönəlməyib. Bəs niyə İran rəsmiləri Ermənistan-ABŞ hərbi əməkdaşlığına dair etiraz bildirmirlər? Bu da bizdə Tehranın siyasəti ilə bağlı haqlı suallar yaradır".

**Politoloq bildirdi ki, müdafiə naziri Zakir Həsənov bir neçə gün əvvəl Bakıda Azərbaycan-İran Birgə Komissiyanın ölkəmizə səfər edən heyətini qəbul etdi**: "General Məhəmməd Əhədinin rəhbərlik etdiyi İran silahlı qüvvələrinin nümayəndə heyəti Şəhidlər Xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarlarını ziyarət edərək "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar. Onlar hətta Azərbaycanın Ermənistan üzərindəki qələbəsini tərənnüm etdirən Hərbi Qənimətlər Parkında da olublar. Müdafiə Nazirliyinin mətbuat xidmətinin yayımladığı xəbərdə bir cümlə diqqətimi cəlb etdi: "Azərbaycanın azad etdiyi ərazilərində həyata keçirdiyi bərpa-quruculuq işlərindən məmnunluğunu bildirən İran nümayəndə heyəti Ermənistanın bölgədə sabitliyə və təhlükəsizliyə təhdid yarada biləcək fəaliyyətlərindən narahatlığını ifadə edib". Bu xəbərdə yayıldığı kimi, İran silahlı qüvvələrinin generalları Ermənistanın təxribatçı fəaliyyətindən narazıdırlarsa, Azərbaycanla sərhəddə gərgliyin yaradılmasında maraqlı olmamalıdırlar. İran Azərbaycanın Qərbi Zəngəzurla bağlı planlarından narahat olduğunu gizlətmir. Tehranda düşünürlər ki, Azərbaycanla Ermənistan arasında növbəti müharibə başlayarsa, Azərbaycan hərbi birlikləri Xankəndi və ətrafı ilə yanaşı, Qərbi Zəngəzura da daxil olacaq və bununla İran-Ermənistan sərhədi Azərbaycanın nəzarətinə keçəcək. Tehran hadisələrin bu istiqamətdə inkişafını istəmirsə, Azərbaycana deyil, Ermənistana təzyiq etməlidir ki, baş nazir Nikol Paşinyan Qarabağ daxil, Azərbaycanın ərazi bütövlüyünü tanısın. İran indiki həssas məqamda öz generallarını Bakıya Qərbi Zəngəzura görə göndərib, nəbzimizi yoxlayırlar".

İstisna deyil ki, İran generallarının Hərbi Qənimətlər Parkını ziyarəti ABŞ-la birgə hərbi təlimlərə başlayan Ermənistana şifrəli mesajdır. Etiraf edək ki, kifayət qədər ciddi addımdır və Ermənistan bu faktı görməzdən gələ bilməz. Söhbət Bakıda sərgilənən erməni tanklarından, digər silah-sursatdan gedir...

❑ **E.PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 161 (8297) 12 sentyabr

# ABŞ və Avropadan mühüm gediş: Hindistan-Ərəbistan-Avropa layihəsi...

## Şahin Cəfərli: "Bu ideya necə və nə vaxt gerçəkləşəcək, maliyyələşmə mənbələri və mexanizmləri hansı şəkildə qurulacaq, bunlar məlum deyil"

**G20 liderlərinin Bharatın (Hindistanın) paytaxtında keçirilən görüşü qlobal əhəmiyyətli bir layihənin başlamasının elan olunması ilə yadda qaldı. Söhbət Hindistan-Afrika-Avropanı birləşdirən iqtisadi, texnoloji və enerji dəhlizindən gedir - India - Middle East - Europe Economic Corridor / İMEC). Avropa Komissiyasının açıqlamasına görə, Avropa İttifaqı, ABŞ, Hindistan, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri Yeni Dehlidə Hindistan-Yaxın Şərq-Avropa iqtisadi dəhlizinin yaradılması haqqında razılaşma imzalayıblar: "Bu dəhliz müasir rabitə infrastrukturu vasitəsilə üç regionu birləşdirməklə onlar arasında münasibətləri yeni səviyyəyə çıxaracaq, vətəndaşlar, müəssisələr üçün məhsul və enerjiyə təkmil çıxış imkanı yaradacaq".**




Açıqlamadan aydın olur ki, layihə Hindistandan Avropaya BƏƏ, Səudiyyə Ərəbistanı, İordaniya və İsrail üzərindən dəmiryol xətləri və liman infrastrukturunun inteqrasiyasını nəzərdə tutur. Onun icrası nəticəsində malların Hindistandan Avropaya indikindən 40 faiz daha tez ucuz çatdırılması mümkün olacaq. Dəhliz boyunca enerji infrastrukturunun inkişaf etdirilməsi, yaşıl hidrogen istehsalının və bütün tərəfdaşlara nəqlinin təmin edilməsi, regionu birləşdirəcək yeni sualtı kabellə telekommunikasiyanı möhkəmləndirmək nəzərdə tutulur.

Hindistanda daha bir layihə elan olunub. Bu, Transafrika dəhlizidir. Dəhliz Konqonun Katanqa əyaləti və Zambiyanın mis mədənləri olan ərazini Anqoladakı Lobitu limanı ilə birləşdirəcək dəmiryol xəttinin çəkilməsini nəzərdə tutur. Bu layihəni Avropa İttifaqı və ABŞ həyata keçirəcək.

Hindistanın dəmir yolları, rabitə, elektronika və informasiya texnologiyaları naziri Aşvini Vaişnav bildirib ki, Hindistan-Yaxın Şərq-Avropa nəqliyyat dəhlizi Çinin "Bir kəmər-bir yol" layihəsindən daha sərfəli olacaq. Nazir qeyd edib ki, "iştirakçı ölkələrin bəzilərini borc tələsinə saldığı" iddia edilən Çin layihəsi ilə müqayisədə yeni layihə hamıya gəlir gətirəcək: "Layihə o qədər sərfəli olacaq ki, bir neçə çoxtərəfli institut onu maliyyələşdirməyə hazırdır. Nəqliyyat o qədər böyük gəlir gətirəcək ki, o, ev sahibi ölkəni borc tələsinə sürükləmədən hər şeyi təkbaşına ödəyə biləcək".

Vaişnavın sözlərinə görə, qismən dəniz, qismən də dəmir yolu dəhlizi olacaq layihənin həyata keçiriləcəyi təqdirdə hər bir ölkə öz ehtiyaclarına uyğun qərar verə biləcək. O qeyd edib ki, layihə Hindistanın Qucarat, Qoa, Maharaştra, Karnataka və Kerala ştatlarında olan limanlarını Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, İordaniya və İsrail də daxil olmaqla, Yaxın Şərqdəki dəmir yolu və liman obyektləri ilə, sonra isə Avropa ilə əlaqələndirəcək. Nəticədə Hindistan və Avropa arasında ticarəti potensial olaraq 40 faizə qədər artacaq.

Hindistandan Avropaya yeni dəhlizin yaradılması planını əksər analitik mərkəzlər ABŞ və Avropanın Çin və Rusiyanın Afrikada artan iştirakına qarşı addımı kimi qiymətləndirirlər. Uzun illərdir "Bir kəmər-bir yol" layihəsini həyata keçirən Çin Afrika ölkələrinin bir neçəsini maliyyə baxımından özündən asılı hala gətirib. Artıq bu proses Zambiyada geniş etirazlara gətirib çıxarmaqdadır. Anqola və digər bir neçə ölkə Çinin ekspansiv iqtisadi siyasətinə qarşı durmağa çalışırlar və yeni layihə onlar üçün xilas kəmərinə çevrilə bilər.

Səudiyyə Ərəbistanı iqtisadiyyatını enerji keçidinə hazırlayır və bu istiqamətdə külli miqdarda vəsait ayırmağa hazırlaşır. Bu baxımdan, yeni layihə ölkə üçün əlavə gəlirlər, təkmil infrastruktur təmin edəcək.

**Politoloq Şahin Cəfərlinin fikrincə, Çin liderinin Hindistandakı G-20 zirvəsinə qatılmaması güman ki, bu məsələ ilə əlaqədar idi:** "İMEC-in iki ayrı dəhlizdən ibarət olması nəzərdə tutulur: Hindistanı Fars Körfəzi ilə birləşdirəcək Şərq dəhlizi və Fars Körfəzini Avropa ilə birləşdirəcək Şimal dəhlizi. İdeya bundan ibarətdir ki, mövcud dəniz və avtomobil nəqliyyatı marşrutlarını tamamlayacaq transsərhəd gəmi-dəmir yolu tranzit şəbəkəsi yaradılsın, dəmir yolu marşrutu boyunca elektrik enerjisi və internet kabelləri, eləcə də təmiz hidrogen ixracı üçün borular çəkilsin.

İMEC ötən il G7 liderlərinin qəbul etdiyi İnfrastruktura Qlobal İnvestisiyalar üzrə Tərəfdaşlıq (PGII) təşəbbüsünün bir hissəsi olaraq düşünülür. PGİİ ABŞ tərəfindən Çinin "Bir qurşaq, bir yol" qlobal təşəbbüsünə kontr-proyekt kimi planlaşdırılıb. Gördüyümüz kimi, yeni dəhlizdə mərkəzi rol Çinin regional rəqibi və başqa bir qədim sivilizasiya olan Hindistana ayrılır. Əgər reallaşarsa, İMEC çərçivəsində Hindistanın Pakistan və İrandan yan keçməklə Orta Şərq və Avropaya çıxışı təmin olunacaq.

İMEC layihəsi mənə qədimlərdə mövcud olmuş və Hindistandan Avropaya uzanan "Ədviyyat yolu"nu xatırlatdı. Coşğun inkişaf erası arxada qalmış və getdikcə ciddi problemlərlə üzləşməkdə olan Çinin "İpək yolu"na paralel və ona rəqib kimi Hindistanın "Ədviyyat yolu" dirçəldilir, "Səma İmperiyası"na qarşı Bharat Cümhuriyyətinin qlobal geosiyasətdə və geoiqtisadiyyatda rolu yüksəldilir. ABŞ liderliyindəki Qərb öz növbəsində, polisentrik düzənin xaotik formalaşma dönəmi kimi qiymətləndirə biləcəyimiz hazırkı mərhələdə "Qlobal Cənub"un vacib komponentləri ilə tərəfdaşlığını və qarşılıqlı bağlılığını dərinləşdirməklə onun gələcəkdə Qərbə rəqib və alternativ qütb kimi ortaya çıxması perspektivini (bu cür perspektiv varsa) indidən əngəlləməyə çalışır. Belə bir alternativ qütbün yaranması üçün çox canfəşanlıq edən Rusiyanın hazırda qalibiyyətli çıxış ehtimalı olmayan bir keşməkeşin içində çabaladığını və ucuz xammal bazarı qismində tərəfdaşların iştahını qabartması xaricində əsla bir cazibə mərkəzi ola bilməyəcəyini xatırlatmaq da yerinə düşər. Bu baxımdan, BRİKS, Şanxay Əməkdaşlıq Təşkilatı kimi qurumların zaman-zaman Avropa Birliyi, NATO kimi inteqrativ birliklərə alternativ güc mərkəzi kimi təqdim olunmaları ciddiyyətdən və gerçəklərdən uzaqdır. Ən azı Çin və Hindistan arasındakı fundamental problemlər çözülmədən (bu isə qeyri-mümkün görünür) adıçəkilən qurumların blok məntiqi ilə inkişaf yoluna daxil olması imkansızdır".

**Politoloq bildirir ki, İMEC hələ ideyadır:** "Hindistan-Orta Şərq-Avropa İqtisadi Dəhlizi hələlik ideyadır və praktik müstəviyə proyeksiyası necə və nə vaxt gerçəkləşəcək, maliyyələşmə mənbələri və mexanizmləri hansı şəkildə qurulacaq, bunlar məlum deyil. Aydın olan budur ki, layihə uzunmüddətli dövrə hesablanıb. İki ay ərzində adıçəkilən ölkələrin ekspert səviyyəsində təmsilçiləri toplaşıb, fəaliyyət planı hazırlamalıdır. Bu plan ortaya çıxdıqdan sonra daha konkret fikirlər söyləmək mümkündür".

Qeyd edək ki, iqtisadi inkişafı getdikcə sürətlənən Hindistan Çinin nəzarətindən kənarda olan dəhlizlə Avropaya yükdaşımaları təmin etmək üçün 20 ildən çoxdur cəhdlər edir. Belə cəhdlərdən biri 2000-ci ildə irəli sürülən Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin yaradılması layihəsidir. Layihənin əsas təşəbbüskarı olan Hindistanın məqsədi Avropaya yükdaşımalar üçün Çindən asılı olmayan marşrutun işə salınması, bir növ Çinin "Bir kəmər-bir yol" layihəsinə alternativ yaratmaq, eyni zamanda limanlarla bağlı Pakistana rəqib olmaqdı. Buna görə də 2018-ci ildə Hindistan İranın Hind okeanı sahilindəki Çahabar limanını icarəyə götürüb. İkitərəfli razılaşmaya əsasən Dehli limanın genişləndirilməsi və modernləşdirilməsinə 600 milyon dollar investisiya yatırmalı idi. Lakin ABŞ-ın İrana qarşı tətbiq etdiyi sanksiyalar buna imkan vermədi.

Ukraynaya hücumundan sonra Avropa ilə ticarəti minimuma düşən Rusiya Hindistan və Çinə istiqamətlənməyə çalışır. Moskva öz neft-qazını bu ölkələrə satmaqla yanaşı, Qərbin qadağan etdiyi malları Çin və Hindistan məhsulları ilə əvəzləməyi də hədəfləyir. Şimal-Cənub marşrutunun qərb seqmenti - Azərbaycan ərazisindən keçən hissəsi Hindistandan yükdaşımalar üçün bütün mümkün variantlar arasında ən əlverişlisidir. Bu ilin mayında bu seqmentin yeganə zəif həlqəsi olan Rəşt-Astara dəmir yolunun tikintisinə dair İranla Rusiya arasında saziş imzalanıb. Hazırda Astara ilə Rəşt arasındakı məsafədə yüklər avtobomil nəqliyyatı vasitəsilə çatdırılır ki, bu da sürəti azaldır. Rusiya bu yolla il ərzində 30 milyon ton yük daşımağı planlaşdırır. Hələlik bu marşrutdan Hindistan da istifadə etməyə meyillidir. Hazırda Hindistanın Mumbay şəhərindən Rusiyanın Sankt-Peterburq şəhərinə yüklər dəniz və Süveyş kanalı yolu ilə 30-45 günə çatdırılır, Şimal-Cənub xətti işə düşdükdən sonra isə vaxt 15 günə qədər qısalacaq.

Rəşt-Astara dəmiryol xəttinin tikintisi üçün Rusiya İrana dövlətlərarası razılaşma əsasında 1,3 milyard avro kredit ayırıb. Layihənin ümumi dəyəri 1,6 milyard avro təşkil edir. Beləliklə, layihədə Rusiyanın payı 85 faizə bərabərdir.

Bütün işlər yekunlaşandan sonra nəqliyyat dəhlizinin ötürmə gücünün illik 30 milyon tona çatacağı nəzərdə tutulur. Lakin ABŞ və Avropa İttifaqının birbaşa dəstəyi ilə işə salınacaq yeni layihə fonunda Hindistanın iki sanksiyalı ölkə - İran və Rusiya ilə ticarəti genişləndirməyə əvvəlki kimi həvəs göstərəcəyi ciddi sual altına düşür.

Yeni dəhliz uzun illərdir regionda və regiondan keçməklə icra olunan bütün beynəlxalq layihələrdən kənarda qalan Ermənistanın bu sahədə əsas ümidindən də məhrum edir. Belə ki, ermənilər Şimal-Cənub nəqliyyat dəhlizinin bir seqmentinin öz ərazisindən keçəcəyinə ümid edirlər. 2004-cü ildən layihəyə qoşulan Ermənistan daşımaların öz ərazisindən reallaşması üçün ölkənin İran sərhədindən Gürcüstan sərhədinə qədər uzanacaq avtomobil magistralını inşa etməyə çalışır. Ermənistan hökumətinin hesablamalarına əsasən, magistralın tikintisi üzrə bütün işləri 8-9 ilə yekunlaşdıra biləcəklər. Ən kobud hesablamalara görə, magistralın tam tikintisi Ermənistan büdcəsinə 3,5 milyard dollara başa gələcək. Bu vəsaitlərin hamısının kredit hesabına təmin olunması nəzərdə tutulur. Lakin yeni dəhliz layihəsi gündəmə gətirildikdən sonra zəruri kreditin ayrılması probleme çevriləcək...

**❑ Dünya SAKİT, "Yeni Müsavat"**

# “İki sevda çəkən” Paşinyan... - Kreml düyməyə basıb?

## İrəvanın Qərblə Rusiya arasında “şpaqat” vəziyyəti alması Bakıya dividentlər vəd edir; ekspertlərdən iki fərqli qənaət

**Sentyabrın 11-dən Ermənistan ərazisində 9 günlük ABŞ-Ermənistan hərbi təlimləri başlayıb. Bu, Rusiyanın vassalı olan ölkənin ABŞ-la ilk belə təlimi, Kremlə qarşı ilk belə demarşıdır. Sirr deyil ki, Paşinyan hökuməti hələ də xarici siyasətdə Qərblə Rusiya arasında manevr etməyə çalışır. Bu kurs xüsusən də 44 günlük müharibədə Ermənistanın acı məğlubiyyətindən sonra özünü daha qabarıq göstərməyə başlayıb. Çünki rəsmi İrəvan hesab edir ki, nə Rusiya, nə də KTMT İkinci Qarabağ savaşı zamanı guya onu müdafiə etməli olduğu halda, etməyib. Halbuki müharibə KTMT üzvü olmayan Azərbaycan ərazisində gedib. Həmçinin müharibədən az sonra Azərbaycan Ordusunun guya Ermənistan ərazinə girdiyi haqda iddialar Rusiyaya qarşı gen-bol istifadə olunmaqdadır.**

Gözlənildiyi kimi, təlim xəbəri Moskvanın qəzəbinə səbəb olub. XİN və Putinin mətbuat katibi səviyyəsində kifayət qədər sərt açıqlamalar verilib, İrəvana xəbərdarlıqlar edilib. Bunu da qeyd edək ki, məhz təlim ərəfəsində - sentyabrın 5-də Ermənistan prezidenti Vaaqn Xaçaturyan baş nazir Nikol Paşinyanın təklifi əsasında ölkənin KTMT-dəki daimi nümayəndəsi Viktor Biyaqovu geri çağıraraq onu Niderlandda səfir və Kimyəvi Silahların Qadağan edilməsi Təşkilatına nümayəndə təyin edib. Bundan bir neçə gün qabaq isə Roma Əsasnaməsi ratifikasiya edilmək üçün Ermənistan parlamentinə göndərilib. Bu isə o deməkdir ki, İrəvan Qərb ölkələri kimi Rusiya prezidentini hərbi cinayətkar kimi tanımağa hazırdır və əgər Rusiya prezidenti Ermənistana səfər edərsə, nəzəri olaraq onda həbs edilməlidir. Nəhayət, Paşinyanın arvadı Anno Akopyan Kiyevə səfər edib. Bütün bu demarşlara görə sentyabrın 8-də Ermənistanın Rusiyadakı səfiri Rusiya XİN-ə çağırılıb və ona etiraz notası təqdim olunub.

Əslində söhbət rəsmi İrəvanın xarici siyasətdə “iki stul”, yaxud “bir əlimdən Rusiya, o birindən ABŞ tutsun” hiyləgər taktikasının iflas olmasından getməlidir. Çox qəribədir, bir yandan Ermənistan ABŞ-la öz ərazisində ilk dəfə hərbi təlimə başlayır, digər yandan isə hakim partiyanın deputatı dərhal bəyan edir ki, “bizim KTMT-dən çıxmaq fikrimiz yoxdur”. Qısası, siyasi buqələmunluqdur bu. Maraqlıdır ki, məhz baş verənlərin fonunda Paşinyan iki gün öncə Sarkis Ovannisyanı Dövlət Təhlükəsizliyi Xidmətinin rəhbəri vəzifəsindən azad edib. Ovannisyan cəmi 4 ay əvvəl Dövlət Təhlükəsizlik Xidmətinin rəhbəri təyin edilmişdi. Məlumata görə, o, Rusiya xüsusi xidmət orqanları ilə sıx əlaqədə olub və bu barədə Qərb xüsusi xidmət orqanlarına bəlli olan kimi, Paşinyana yaxın çevrəsindən bu “köstəbəyi” dərhal uzaqlaşdırmağı tövsiyə edib.

Bəs bundan sonra nə gözlənilir? İrəvanın Qərblə Rusiya arasında “şpaqat” durumu Bakıya hansı dividentlər vəd edir? Ermənistanın müharibə poliqonuna çevrilməsi mümkündürmü? Ümumiyyətlə, Paşinyan hökumətinin son demarşlarına Moskvanın əks cavab(lar)ı nə olacaq və Bakı bundan necə faydalana bilər? Belə görünür Kreml artıq “düyməyə” basıb. Tanınmış politoloq Sergey Markov deyib ki, Rusiya əleyhinə bu oyunlar Ermənistana baha başa gələcək. “Tezliklə Qarabağ Bakının tam nəzarətinə keçəcək. Onun öz sahibinə tam qaytarılmasının zamanı çatıb”. Bunu da Markov söyləyib.



Öz növbəsində hərbi analitik İqor Korotçenko bildirib ki, bu demarşlar Ermənistan dövlətçiliyi üçün acınacaqlı nəticələrə gətirəcək. Rus politoloqlar nəyə işarə edir? Bu arada Teleqramın Ermənistan seqmentində məlumat yayılıb ki, hazırda Rusiyada 12 minə yaxın “Vaqner” döyüşçüsü var və onlar İrəvanda hakimiyyət çevrilişinə hazırlaşırlar. İddia edilir ki, özəl hərbi şirkətin rəhbəri Yevgeni Priqojin öldüyü zaman Ermənistanda ümumilikdə 3 min “vaqner”çi olub. Daha sonra 2 min döyüşçü də onlara qoşulub. Hazırda isə Ermənistanda onların sayı 12 mindir. “Ermənistanın ABŞ-la keçirdiyi təlimlər fonunda İrəvanın hərəkətləri Moskvanı təəssüfləndirir”. Rusiya xarici işlər naziri Sergey Lavrov deyib. “Təcavüzkar bir NATO ölkəsinin Cənubi Qafqaza nüfuz etməyə çalışmasında yaxşı bir şey görmürük. Düşünürəm ki, bu, Ermənistanın özü də daxil olmaqla, heç kim üçün yaxşı deyil. Ermənistan rəhbərliyinin hərəkətlərinə təəssüf edirik. Ermənistanın iki ildir KTMT təlimlərində iştirakdan imtina etdiyini nəzərə alsaq, onun hərəkətləri xüsusilə qəribə görünür”, - Lavrov bildirib.

**REAL Partiyasının Siyasi Komitəsinin üzvü Natiq Cəfərli “Yeni Müsavat”a qeyd etdi ki, son gərginlik Ermənistanın ərköyün siyasətindən qaynaqlanır. N.Cəfərli bildirdi ki, İrəvana görə guya Rusiya ona dəstək vermir:** “Bir növ Moskvanı daha aktiv olmağa təhriketmə çağırışlarıdır. Ermənistanın Qərbə inteqrasiya etmək istəməsi Türkiyə və Azərbaycan üzərindən mümkündür. Ancaq imzalanmış müqaviləyə əsasən Rusiyanın hərbi bazaları 2044-cü ilə qədər Ermənistanda qalacaq. Hansı məntiqlə Qərbə və NATO-ya inteqrasiya edə bilərlər? Eyni zamanda Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı, Avrasiya İqtisadi Birliyi və Gömrük İttifaqının üzvüdür. Fikrimcə, son hadisələr kənardan danışılmış döyüşə oxşayır. Çünki İrəvan sanksiyalardan yayınmaqda Rusiyaya kömək edir”.

**REAL funksioneri söylədi ki, Ermənistan Sinqapur və başqa ölkələrdən yarımkeçiricilər alıb Rusiyaya verir**: “Əgər münasibətlər pisdirsə, bu dəstək nədir? Son 3 ildə iki ölkə arasında ticarət dövriyyəsi artıb. Ermənistanda bu qədər mal istehsal edilmir ki, sata bilsin?! Deməli, sanksiyalardan yayınmaqda dəstək verir. Mənə elə gəlir ki, İrəvan-Moskva xəttində üzdə söz davasıdır. Paşinyan hökuməti hiyləgər gediş edir. Yəni Rusiya-Ermənistan arasında guya konflikt olduğunu göstərərək Moskvaya sanksiya məsələsində verdikləri dəstəyi Qərbin gözündə ört-basdır eləməyə çalışırlar. Belə desək, Avropa son gərginlik fonunda İrəvanı anti-Rusiya cəbhəsində görür, əvəzində isə altdan-altdan işlərini davam etdirirlər. Digər tərəfdən, Ermənistanın Qərbə inteqrasiyası mümkün deyil. Bəli, Paşinyanın belə bir arzusu ola bilər, amma onlar reallıqları yaxşı dərk edirlər. Təbii ki, Paşinyanın Qərblə yaxşı əlaqələri mövcuddur, o sivil toplumdan hakimiyyətə gəlib, ancaq bunu həyata keçirməyə gələndə o qədər asan deyil. Çünki İrəvan başa düşür ki, NATO ilə yaxınlaşmaq Türkiyə ilə əlaqələri düzəltmək deməkdir. Ona görə Rusiya-Ermənistan söz atışmasını ciddi qəbul etmirəm. Üstəlik, Rusiyanın Ermənistana təzyiq imkanı o qədər çoxdur ki, bunu hər iki tərəf yaxşı bilir. Rusiya istəyir ki, Ermənistan zəifləmiş halda həmişə özünü təhlükədə hiss etsin və hər an devrilmək təhlükəsi olan Paşinyan komandasına istəklərini diqtə edə bilsin. Ona görə də Ermənistan KTMT-dən çıxmaq istəsə də, bunun mexanizmi yoxdur. Eləcə də rus hərbi bazalarını çıxarmaq üçün yenə icra mexanizmi yoxdur”.

**Siyasi şərhçi Azad Məsiyev qəzetimizə dedi ki, Paşinyan ABŞ tərəfindən hakimiyyətə gətirilib və onun idarə edilən fiqur olması kimsəyə sirr deyil:** “Məqsəd Rusiyanın Ermənistanda nüfuzunu azaltmaq və təsir dairəsindən çıxarmaqdır. Artıq neçə ildir ki, bu strateji kurs götürülüb. Bu gün danışıqlar prosesinin dalana dirənməsi də məhz ABŞ-Rusiya arasında Cənubi Qafqaz uğrunda gedən mübarizədən irəli gəlir. Vaşinqton faktiki olaraq sülh danışıqları prosesinə əngəl olur. Belə situasiyada isə Azərbaycan üçün yeni dividentlər meydana çıxır”. **Ekspert vurğuladı ki, bu vəziyyətdə Azərbaycan rəhbərliyi Rusiya ilə münasibətləri uzlaşdıraraq Qarabağdakı yarımçıq qalan məsələləri tam həll etməyə çalışacaq:** “Kreml də əlindən gələni edəcək ki, Paşinyan iqtidarını devirsin. Sadəcə, amerikalılar bütün gücü ilə onu müdafiə edirlər və hələlik mümkün olmur. Nəzərə alaq ki, Ermənistan KTMT üzvüdür və onun təlimlərindən imtina edib. Birdən-birə amerikalı hərbçilərlə birgə təlimlər qərarı Rusiyaya dirsək göstərməkdir və bu da Moskvanın xoşuna gəlmir. Ona görə gec-tez İrəvana adekvata cavab veriləcək. Ümumilikdə Ermənistanın KTMT-dən çıxmağa hesablanmış addımları vəziyyəti gərginləşdirir. Odur ki, Rusiyanın Paşinyan problemi ilə Azərbaycanın Qarabağ maraqları üst-üstə düşür”.

❑ **Emil SALAMOĞLU,**
**“Yeni Müsavat”**



# Qubadlı və Zəngilanda insan qalıqları ekshumasiya edildi

**“Xalqımıza qarşı törədilmiş cinayətlərlə bağlı istintaq-əməliyyat tədbirləri davam etdirilir”. Bu barədə Musavat.com-a Hərbi Prokurorluğun Mətbuat Xidmətindən daxil olan açıqlamadan bildirilib.**

Qeyd edilib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə hərbi və siyasi-diplomatik yolla 30 ilə yaxın müddətdə işğal altında olan tarixi torpaqlarımız azad olunub. Azərbaycan Prezidentinin rəhbərliyi, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyi və xalqımızın əzmkarlığı ilə həmin ərazilərdə yüksək intensivliklə abadlıq-quruculuq işləri həyata keçirilir.

Hərbi Prokurorluq bildirir ki, Qubadlı rayonunun Məlikəhmədli kəndində və Zəngilan rayonunun Vejnəli kəndində Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş şəxslərə məxsus olması ehtimal olunan insan meyitinin qalıqları ekshumasiya edilib, həmin meyit qalıqları ilə bağlı məhkəmə-tibbi kriminalistik və məhkəmə molekulyar-genetik ekspertizaları təyin edilərək icraya yönəldilib və digər zəruri hərəkətlər yerinə yetirilib.

Ermənistanın silahlı qüvvələri və qanunsuz erməni silahlı birləşmələri tərəfindən xalqımıza qarşı törədilmiş sülh və insanlıq əleyhinə olan, müharibə, terrorçuluq, qəsdən adam öldürmə və digər cinayət faktları ilə bağlı Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin 103-cü (Soyqırım), 107-ci (Əhalini deportasiya etmə və ya məcburi köçürmə), 120.2.12-ci (Milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adam öldürmə) və digər maddələri ilə istintaq olunan cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

“Qanunvericiliyin və beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsiplərinin tələblərinə uyğun olaraq bütün tədbirlərin görülməsi təmin ediləcək", - açıqlamada bildirilib.

YENİ MÜSAVAT
N 161 (8297) 12 sentyabr 2023

# Lavrovdan Bakıya status ittihamı - Moskva yenə "bostanımıza" daş atdı: səbəb

## **Arzuxan Əlizadə:** "Bununla Ermənistan ictimaiyyəti, Rusiyanın idarə elədiyi müxalifət qızışdırılır ki, Paşinyan Qarabağı Azərbaycan ərazisi olaraq tanıdığı üçün günahkardır və onun üzərinə gedilməlidir

## **Akif Nağı:** "Ermənilərə mesaj verilir ki, dirəniş göstərməkdə, separatçılıqda davam etsinlər"

**Rusiya Qarabağda öz hərbi mövcudluğunu uzatmaq üçün 2025-ci ilədək yüz oyundan çıxacaq. Bunu əminliklə söyləmək olar. Ölkənin baş diplomatı Sergey Lavrovun sentyabrın 10-da keçirdiyi mətbuat konfransında səsləndirdiyi fikir bu qənaəti möhkəmlədir.**

Mətbuat konfransında "Rusiyanın Dağlıq Qarabağı Azərbaycana verməkdə" ittiham olunması ilə bağlı erməni jurnalistin sualına o, belə cavab verib: "Rusiyanı nədəsə ittiham etməzdən qabaq gərək öz hərəkətlərinizi özünüz qiymətləndirəsiniz. Ermənistan parlamentinin sədri Alen Simonyan Rusiya, Ermənistan və Azərbaycan dövlət başçılarının 2020-ci il noyabrın 10-da üçtərəfli sazişi imzalamasına istinad edir. Bu, həqiqətə uyğun deyil. Orada Qarabağın statusu haqda heç nə deyilmir. O zaman hər üç lider ondan çıxış edirdilər ki, statusla bağlı əlavə danışıqlar aparılmalıdır. Amma sonradan Azərbaycan Prezidenti və Ermənistan Baş nazirinin dəvət olunduğu Praqada hər ikisi 1991-ci il Almatı Bəyannaməsini tanıdıqlarını bildirən bəyanat imzaladılar. Beləcə, məsələ qapandı. Ermənistanın baş naziri keçmiş DQMV-nin Azərbaycanın tərkibində olması haqda sənəd imzaladı. Bunun üstündən bizi 2020-ci il noyabrın 10-da guya Qarabağı "vermək"də ittiham etməyə ehtiyac yoxdur. Gərək öz xalqın qarşısında özün cavab verməyi bacarasan".



Beləcə, Lavrov-Kələntəryan faktiki həm də İrəvanı ölkəmizin ərazi bütövlüyünü tanıdığına görə qınayıb. Bəs "hər üç lider ondan çıxış edirdilər ki, statusla bağlı əlavə danışıqlar aparılmalıdır" cümləsi nə deməkdir? Belə çıxır, Bakı 10 noyabr sənədi imzalanarkən separatçılara status vəd edib. Əlbəttə ki, ağ yalandır.

Ermənistan rəsmiləri rusiyalı həmkarlarını ittiham edirlər ki, "Qarabağı Rusiya Azərbaycana təhvil verib", Kremldəkilər isə əksinə, deyirlər ki, "Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanıdıqda Qarabağı Azərbaycana təhvil vermiş olub". İkisi arasında sərt polemika bu ətrafda gedir. Kremlin məntiqindən belə bir sual yaranır ki, baş nazir Nikol Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanıyan açıqlama verməsəydi, Rusiya Qarabağı "mübahisəli" ərazi kimi qəbul edəcəkdi?

Sergey Lavrov bununla nə demək istəyir? Niyə israrla "dəlinin yadına daş salıb" Azərbaycanın bostanına daş atır?

Əlavə edək ki, Rusiya Xankəndində sentyabrın 9-da təşkil edilən "prezident seçkisi" və ardınca "andiçmə" şousunu hələ də pisləməyib. Fransa kimi.

**AMİP sədri Arzuxan Əlizadə "Yeni Müsavat"a bildirdi ki, Sergey Lavrovun səsləndirdiyi fikirlərdə elə də böyük bir yenilik və təəccüb ediləsi nə isə yoxdur. Çünki bu, Rusiyanın davamlı olaraq yürütdüyü siyasətin növbəti təzahürüdür:** "Hələ İkinci Qarabağ savaşından sonra 2020-ci ilin dekabrında ənənəvi mətbuat konfransında KİV qarşısında Rusiya Prezidenti təxminən eyni mövqeni sərgiləmişdi. O demişdi ki, 30 ilə yaxın müddətdə heç Ermənistan özü belə, Qarabağın müstəqilliyini tanımayıb. Yəni faktiki olaraq Ermənistanı yönləndirən fikir ortaya atmışdı ki, İrəvan separatçı rejimin müstəqilliyini tanıya bilər. İndi isə Lavrovun dili ilə Ermənistan hakimiyyəti sanki Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıdığını bəyan etdiyi üçün tənqid edilir, erməni cəmiyyətinin hədəfinə çıxarılır, günahkar elan edilir. Rusiyanın yürütdüyü siyasətin mahiyyəti buradan çılpaqlığı ilə üzə çıxmış olur. Rusiya məsələnin həll olunmasında deyil, gərginliyin qorunub saxlanmasında maraqlıdır. Lavrov o cür açıqlama verməklə Paşinyan hakimiyyətini hədəfə gətirir, Ermənistan ictimaiyyətini və Rusiyanın idarə elədiyi Ermənistanda müxalif qüvvələri konkret olaraq qızışdırır ki, Paşinyan Qarabağı Azərbaycan ərazisi olaraq tanıdığı üçün günahkardır və onun üzərinə gedilməlidir. Bununla eyni zamanda Rusiya dolayısı ilə də olsa Ermənistan cəmiyyətini ona körükləyir ki, Qarabağı müstəqil olaraq tanıyın, Qarabağı Azərbaycan ərazisi olaraq tanımayın. Sergey Lavrovun bu açıqlaması bu baxımdan olduqca çox zərərlidir".

**A.Əlizadənin fikrincə, Xankəndidə 9 sentyabrda qondarma "prezident seçkisi"nin "nəticəsini" tanımadığını bəyan etməməsi də Rusiyanın siyasətinin nədən ibarət olduğunu nümayiş etdirir:** "Rusiya 2022-ci ilin fevralında Azərbaycanla bağladığı stateji müttəfiqlik haqqında müqavilənin 11-ci bəndinə əməl etmir bu davranışla. 11-ci bənddə göstərilir ki, tərəflər öz ölkələri daxilində separatizmə və terrorizmə qarşı birgə mübarizəni təşkil edirlər. Rusiya isə hər zaman olduğu kimi bu məsələdə də öz imzasına hörmət eləmir. Növbəti dəfə Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı olan hərəkətə neytral qalmaq nümayiş etdirir".

**Azad Vətən Partiyasının sədri Akif Nağı isə bildirdi ki, Sergey Lavrov öz maraqlarından çıxış edir və bu açıqlaması ikibaşlı açıqlamadır. Lavrov Rusiyanın ikili oyun oynamaq siyasətinin icraçısıdır və öz ölkəsinin maraqlarını müdafiə eləməyə çalışır:** "Rusiyanın marağı bundan ibarətdir ki, situasiyanı dəyişsin. Onlar Nikol Paşinyanın hakimiyyətdə qalmasını istəmirlər. Lavrovun məlum açıqlaması da Ermənistan əhalisində Nikol Paşinyana qarşı ictimai rəyi formalaşdırmağa xidmət edir. Artıq Rusiyanın nökərləri olan Serj Sərkisyan, Robert Köçəryan fəallaşıblar və onlara yeni qüvvələr də qoşulurlar ki, Nikol Paşinyanı iqtidardan devirə bilsinlər. Rusiya Ermənistanda Paşinyana qarşı xalqı qaldırmaq üçün ən müxtəlif addımlar atır. Lavrovun açıqlaması da buna xidmət edir.

Eyni zamanda Rusiya xarici işlər naziri dolayısı ilə ermənilərə mesaj göndərir ki, arxayın olun, biz Qarabağı Azərbaycana verməmişik. Revanşist ermənilərdə ümid yaratmağa xidmət edən bu cür açıqlamadan çıxarıla biləcək ikinci məna budur. Ermənilərə mesaj verilir ki, dirəniş göstərməkdə, separatçılıqda davam etsinlər. Rusiya eyni zamanda aranı qarışdırıb rus sülhməramlılarının uzun müddətə Qarabağda qalması üçün şərait yaratmağa çalışır. Ancaq Rusiya bu niyyətinə nail ola bilməyəcək. Azərbaycan bütün ərazisində özünün suveren hüquqlarını, hakimiyyətini bərqərar edəcək".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# ABŞ-ın səfiri nə vaxt Bakıda olacaq? - Özündən qabaq sözçüsü gəldi...

## Vaşinqton düşmən olduğu Moskvaya elçisinin müddəti bitən kimi yenisini göndərdi, Azərbaycana iki ildir təsdiqləmir; **deputat:** "Erməniperəst konqresmenlər mane olur"

**Artıq iki ildir ki, Birləşmiş Ştatların ölkəmizdəki səfir yeri boşdur. Azərbaycanın müstəqilik tarixində hələ belə böyük fasilə olmamışdı. Halbuki bu il Vaşinqton İrəvan və Moskvadakı səfirlərini səlahiyyət müddətləri bitən kimi dərhal dəyişib. "Yeni Müsavat" xatırladır ki, Birləşmiş Ştatların Bakıdakı sonuncu rəsmi elçisi Örl Litzbergerin səlahiyyət müddəti ötən ilin iyul ayında bitib. Prezident Co Baydenin Azərbaycana növbəti səfir qismində təyin etdiyi etmək istədiyi şəxs - Mark Libbinin Konqresdə təsdiqlənməsi isə nədənsə ləngiyir. Hərçənd diplomatın namizədliyi 3 ay öncə Senatın müvafiq komitəsində təsdiqlənib. Maraqlıdır ki, bir neçə gün qabaq ABŞ-ın Azərbaycandakı səfirliyinin yeni mətbuat katibi xanım Venessa Zenji Bakıya gəlib. Onun şərəfinə səfirlikdə ziyafət də təşkil edilib. Yeni səfirin gəlişi isə bir ildən çoxdur ləngiyir. Görəsən, niyə? ABŞ kimi bir supergüc gerçəkdənmi erməni lobbisinin əlində girinc qalıb? Yoxsa böyük pauza hansısa məsələdə Vaşinqtonun Bakıdan narazılığının təzahürüdür? Əgər belədirsə, düşmən olduğu Rusiyaya tələm-tələsik səfir təsdiqləndiyi halda, Azərbaycana bu qədər fasilə verilməsinin anlamı nədir?**

Nəzərə alsaq ki, Bayden administrasiyası erməniperəstliyi ilə nə qədər seçilsə də, xarici işlər naziri Entoni Blinken Qarabağ məsələsində konstruktiv mövqeyi ilə fərqlənir. Onun Laçın və Ağdam yollarının hər ikisinin açılmasını dəstəkləməsi, erməni əhalisinin hüquq və təhlükəsizliyinə Bakının təminat verməsini təqdir etməsi və digər elementləri sadalamaq olar ki, Ağ Ev qısa bir zamanda səfiri Bakıya göndərməliydi. Burada yeganə versiya Konqresin erməniperəst mövqeyi qalır. Çünki erməni lobbisinin Bob Menendes, Adam Şiff, Robert Menendez kimi senatorlar vasitəsilə Bakıya qarşı ittihamlar səsləndirdiyini açıq-aşkar görmək olar. Konqresdəki ermənipərəstlər də səfirin təsdiqlənməsini yubadırlar və nəticədə Amerika prezidentinin sərəncamına gedib çıxmır. Bəs bu Vaşinqtona nə verir? ABŞ-Azərbaycan əlaqələrini 5-6 konqresmen ucbatından xoşagəlməz məcraya salmağa dəyərmi?

**Deputat Elman Nəsirovun "Yeni Müsavat"a bildirdiyinə görə, Birləşmiş Ştatların səfir təyinetmə mərhələsinin məntiqi sonluğa çatması yubanır. Onun fikrincə, bu da təsadüfi deyil.** "Səfir təyin etmək səlahiyyəti prezidentə aiddir, seçimi o edir, lakin yekun qərarı Konqres verir və Senatda bitir. Vaxtilə Brayzanın təsdiqi də uzanmışdı. Onun xanımının türk olması səbəbini bəhanə gətirən erməniperəst konqresmenlər mane olurdular. Bu dəfə nikah məsələsi deyil",- deyə deputat əsas səbəbləri ardınca sadaladı. "İndi təkcə Ermənistan və separatçılar da deyil, həm də erməni lobbi və diasporu biabırçı məğlubiyyətdən psixoloji travma alıb, konkret olaraq psixoz vəziyyətdədirlər. Onlar revanşizm əhval-ruhiyyəsindədirlər, Azərbaycandan qisas almaq üçün gecə-gündüz yollar axtarırlar və bu prosesdə erməniperəst konqresmenlər də fəallıq göstərirlər. Misal üçün, Robert Menendesin arvadı ermənidir. Özlərinə demokrat deyirlər, amma korrupsiyaya bulaşmış deputatlardır. Konqresmenlər "əl əli yuyar, əl də üzü yuyar" prinsipi ilə erməni lobbisinə işləyirlər. Həmin fəaliyyətin nəticəsidir ki, Azərbaycana səfir göndərilməsi prosesi gecikir. Erməniperəst senatorlar açıq şəkildə hədələyirlər ki, Azərbaycana səfir göndərilməsinə imkan verməyəcəklər. Əvvəllər Brayza nümunəsində nikah diplomatiyasını bəhanə edirdilərsə, bu dəfə bizə qarşı açıq nifrət yağdırırlar. Çünki məğlub ovqatdadırlar və BMT Təhlükəsizlik Şurasında qətnamə qəbul edilməməsi onların psixoz vəziyyətini bir qədər də ağırlaşdırıb", - deyə E.Nəsirov qeyd etdi.


Mark Libbi

**AMİP sədri Arzuxan Əlizadə isə hesab edir ki, səfir təyin edilib, amma təsdiqlənməyib. Onun sözlərinə görə, Vaşinqton Azərbaycana daha çox diqqət göstərməlidir:** "ABŞ-ın dünyada ikinci böyük diplomatik korpusu İrəvandadır. Azərbaycanda isə amerikalı səfir yoxdur və ögey münasibət var. Bunu Bakıya münasibətin göstəricisi kimi qiymətləndirmək lazımdır. Çünki Bayden dövründə Azərbaycana isti münasibət olmayıb. Baxmayaraq ki, Blinkenin zəngləri olur, danışıqlarda vasitəçilik edir, amma bütövlükdə səfirin təyin edilməməsi ögey münasibətin təzahürüdür. Azərbaycan ABŞ üçün bölgədə ən əhəmiyyətli ölkədir. Xüsusən İranda baş verən hadisələr fonunda Bakı Vaşinqton üçün çox vacibdir. Bunu nəzərə almalıdırlar".

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

# “Turistlərə təkcə Bakını göstərməməliyik” - səyyah-blogerlə müsahibə

**Onu digərlərindən fərqləndirən tarixə sevgisi və bu sevgini biliyi ilə vəhdət şəklində təqdim etmə bacarığıdır. Dünyagörüşü, səmimiyyəti onun sosial mediadakı auditoriyasını günü-gündən genişləndirir.**

*Tarixçi, səyyah, fotoqraf İradə Qədirova “Yeni Müsavat” a müsahibəsində xarici ölkələrə səfərlərindən, Azərbaycanda turizmin vəziyyətindən, tarixi abidələrimizin vəziyyətindən və s. barədə danışıb.*

## **İradə Qədirova:** “Hər insan qorxuları ilə üz-üzə qalmaq üçün həyatında bir dəfə tək səyahət etməlidir”



**- Sizi səyahətə həvəsləndirən idealınız olub?**

- Mənim ideallarım İbn Battuta və Övliya Çələbi olub. Onlar təkcə səyahət etməyiblər, olduqları yerlərin hekayələrini də yazıblar. İbn Battutanın haqqında az məlumat olmasına təəssüflənirəm. Eyni zamanda Hacı Zeynalabdin Şirvaninin adını çəkə bilərəm. Yeri gəlmişkən, Əzizə Cəfərzadənin “Səyyah” kitabı onun haqqındadır. Əslən Şamaxılı olan Hacı Zeynalabdin Şirvaninin ömrü qısa olsa da, uzun yollar qət edib. XVIII əsrin sonu, XIX əsrin əvvəlində Hindistanı qarış-qarış gəzib. Övliya olsa da, səyahət etdiyi ölkələrin mədəniyyəti, iqlim qurşağı, mətbəxi və s. haqqında ətraflı məlumat verib. Düşünürəm ki, öz səyyahlarımızı tanımalıyıq.

**- Səyahətləriniz haqqında paylaşımlarda tarixi məlumatları yazırsınız. Sizi digər blogerlərdən fərqləndirən həm də budur. Deməli, tarixi doğru təqdimatla sevdirmək mümkündür?**

- İxtisasca tarixçiyəm. Bu ixtisası seçməklə dünyanı gəzmək, müxtəlif xalqların tarixi, məişəti ilə maraqlanmaq istəyirdim. Jurnallarda getdiyim yerlər haqqında yazmaq istəyirdim. 2016-2017-ci illərdə “Azvision” jurnalı üçün mənim Azərbaycanda çəkdiyim şəkilləri seçilmişdi. Sosial şəbəkədə paylaşım edəndə fərqinə varmırsan, amma jurnalı vərəqləyəndə arzumun yerinə yetdiyini hiss etdim. Dünyanı gəzməyə başlayanda, fərqli xalqların dillərini eşidəndə, insanların fotolarını çəkəndə də həqiqətən bunu niyə istədiyimi anladım. 44 günlük Vətən müharibəsi zamanı hər kənd azad edildikcə o kənd haqqında post paylaşırdım. O zaman qədər paylaşımlarım bu qədər maraq görməmişdi. Anladım ki, insanlar tarixlə maraqlanırlar.

**- Adətən səyahət həvəsində olanlar dünya turu barədə düşünürlər, hansı ölkədən başlamaq barədə plan qururlar. Sizin belə planınız olub?**

- İlk səfərim Yunanıstana olub, amma hər zaman dünya səyahətinə Hindistandan başlamaq istəmişəm. Şərq sevdalısıyam. Səfəvi tarixi ilə bilavasitə bağlı olduğu üçün Pakistan, Hindistan coğrafiyasına marağım çox idi. Atam mühafizəkar olduğu üçün Hindistana səyahət etməyimə icazə vermirdi. Arzuma illər sonra çatdım. Demək ki, hər şeyin öz zamanı var.

**- Arzunuza çatdınız, bəs Hindistana ayaq basanda təsəvvürünüzdəki kimi idi?**

- Hindistan ya ilk baxışdan özünü sevdirəcək, ya da bir daha getmək istəməyəcəksən kimi hiss yaşadır. Gözümə çəhrayı eynək taxıb getməmişdim. Küçələrdə rəqs etməsələr də, rəngli mənzərələr çoxdur. Həm də fotoqraf olduğum üçün fotolar üçün cəlbedici kadrlar çoxdur. Digər tərəfdən, bir ölkənin mənfi tərəflərini tənqid etməyi doğru hesab etmirəm. Qüsurların üzərində dayanmaq lazım deyil.

**- Deyilənə görə, şərqdə zaman donur, qərbdə isə uçur. Siz bunu necə hiss etmisiniz? Həqiqətən belədirmi?**

- Şərqdə zaman yavaş irəliləyir. Bunu bir neçə şərq ölkəsində gördüm. Məsələn, Bakıda qaçaqaç, xaotik vəziyyətdir. Şərq ölkələrində heç kim heç yerə tələsmir. İş alınmırsa, bunu problem etmirlər. Bu xüsusiyyət insanların təbiətinə aramlıq gətirir, üzlərinə də hiss olunur. Qərb ölkələrində insanlar zamanı aramla idarə edirlər. Zamanın donduğunu son səyahətimdə-Venesuelada, Kanaima Milli Parkında hiss etdim. Böyük şəhərləri çıxmaq şərti ilə, insanlar təbiətlə o qədər iç-içədirlər ki, həqiqətən zamanın dayandığı hissi olur.

**- Azərbaycan isə şərqlə qərbin ortasında yerləşir. Xarici ölkələri gəzdikdən sonra Azərbaycana kənar gözlə baxanda nələrin dəyişməsini istərdiniz?**

- Bəzi məqamları tənqid edəndə anlamırlar. Halbuki mən də inkişaf üçün çalışıram. 2016-cı ildən Azərbaycanı qarış-qarış gəzmişəm. Turizmə, abidələrə münasibətin dəyişməsini çox istərdim. Müşahidələr göstərir ki, Azərbaycana gələn turistlər ölkəmizin əsasən mətbəxini xatırlayırlar. Bu pis deyil, amma bununla kifayətlənmək doğru deyil. Azərbaycanın zəngin tarixi, erkən orta əsrlərə aid təsəvvüf tarixi var. Özbəkistan nəqşbəndilik, Türkiyə mövləvilik ilə tanınır. Azərbaycanda da xəlvətilik olub, amma biz bunu tanıda bilmirik. Türkiyədə mövləvilik dedikdə hər kəs Ruminin adını çəkir, halbuki o türk olmayıb, Əfqanıstanın Bəxş şəhərində doğulub. İnkişaf yaxşıdır, amma milli kimlik, dəyərləri unutmamalıyıq.

**- Siz dediyiniz şəkildə təbliğatı ayrı-ayrı şəxslər etməlidir ya dövlət qurumları? Məlumdur ki, abidələrimizin vəziyyəti də ürəkaçan deyil.**

- Abidənin uçuq vəziyyətdə olması normaldır. Türkiyədə qədim şəhərlərin qalıqları çoxdur. Azərbaycanda isə belə bir fikir var ki, abidənin dağılmış olması nöqsandır. Bu yanlış düşüncədir. İstənilən ölkədə belə abidələr var, zatən tarixilik də elə o vəziyyətdə olmasıdır. Biz də xarici ölkələrdə dağılmış abidələri çəkib göstəririk. Azərbaycanda qoruna və konservasiya edilə biləcək abidələr var. Məsələn, Abşeron rayonunda Mıəcik karvansarayı var. Bəlkə də Azərbaycanda ikinci elə karvansaray yoxdur. Şəki karvansarayı hotel kimi istifadə olunur deyə xüsusi vurğulamıram. Mıəcik karvansarayı Şirvan-Abşeron memarlığının çox gözəl nümunəsidir. Bu abidə sanki “ölümə” məhkum edilib. Bu yaxınlarda türk blogeri ora aparmışdım. Paylaşıma iradlı rəylər yazılmışdı: “Azərbaycanda göstərməyə başqa yer yoxdu?” Halbuki bu nöqsan deyil. SSRİ Azərbaycanın milli kimliyinə çox böyük zərər vurub. Təbliğatın çox böyük rolu var. Diqqətdən kənarda qalanda konservasiya ilə məşğul olan qurumlar düşünürlər ki, bu heç kimə lazım deyil. Turistik məhsulları artırmaq lazımdır, onlara ancaq Bakını göstərməkdən vaz keçməliyik. Turistləri Bakı kəndlərinə aparmaq lazımdır. Əmircan mənim üçün Azərbaycanın Florensiyasıdır. Bir qəsəbədən təxminən 184 rəssam çıxıb. Bu, Əmircanın DNK-sıdır. Məscidlər, hamamlar... Şamaxıda Yeddigünbəz türbələr kompleksi və s. qayğısız qalıblar. Abidələrin vəziyyətini ictimailəşdirmək lazımdır.

**- Sanki səyahətçi blogerlər arasında abidələrə sizdən başqa diqqət edən yoxdur...**

- Blogerlik elə sahədir ki, rəqabət böyükdür. Əksər blogerlər səhifənin aktiv olması, layk üçün çalışır. Mən isə bundan qaçıram. "Kütlə nə istəyir?" sualının arxasınca qaçmıram. Hesab edirəm ki, insan özündən sonra iz qoymalıdır. Vətən qarşısında hər kəsin borcu var. Mən də tarixçi kimi abidələrin qorunması üçün mübarizə apararaq borcumu yerinə yetirməyə çalışıram.

**- Əslində kifayət qədər rəqabətli mühitdə tarixi məlumatlarla kontent yaradıb tanınmaq asan deyil. Bu qədər maraq cəlb edəcəyinizi düşünürdünüzmü?**

- Əslində gözləmirdim. Sadəcə, səyahət edirdim, fotoları yazılarla paylaşırdım. Səhifələrimə maraq Azərbaycanı tanıtmağa başlayanda artdı. Rəhmətlik atam deyirdi ki, dünyanı tanımaq Vətəndən başlayır. Ucqar kəndlərində yaşayan insanları görəndə anlayırdım ki, Azərbaycanın döyünən ürəyi həmin insanlardır. Bakıda unudulan qonaqpərvərlik, istiqanlılıq o kəndlərdə var.

Yeri gəlmişkən, mən özümü Bakıda daha təhlükədə hiss edirəm, nəinki bölgələrdə. Xaricdən gələn qonaqlar üçün planlama edəndə ilk növbədə ucqar yerlərə yönəldirəm ki, ölkəmizi o insanlarla tanısınlar. İstənilən şəxs kəndlinin qapısını döysə, qarşılıq gözləmədən evini açacaq. Hətta gedəndə də deyirlər ki, “sənin burada evin var”. Turistləri o evlərə yönələndə kəndlilərin maddi vəziyyətinə kömək olur. Paylaşımlara gələn rəylərdə hiss edirdim ki, Vətəni tanımaqda çox böyük boşluq var.

**- Təbliğat turizm üçün də faydalıdır, tarixi abidələrin yerləşdiyi ərazilərin inkişafı üçün önəmlidir...**

- Tamamilə doğrudur. Konkret fakt deyim. 2016-cı ilə qədər Şamaxıdakı Kələxana türbələri haqqında məlumat, foto yox idi. İlk dəfə mən fotolarını çəkdim, ictimailəşdirdim. Öncə fotoqrafların axını oldu, çünki unikal türbələrdir. Daha sonra yerli turizm şirkətləri turlar təşkil etməyə başladılar. Nəticədə kəndə asfalt yol çəkildi, üstəlik, türbələrdə arxeoloji qazıntılara başlandı. MİRAS İctimai Birliyinin sədri, tarix üzrə fəlsəfə doktoru Fariz Xəlilli ilə bu barədə danışmışıq. Türbələr Böyük İpək yolunun üzərində yerləşib. Orada tarixi sirlər var. Odur ki, arxeoloji qazıntıların aparıldığını görəndə çox sevindim.

**- Kəndləri tanıdırsınız, vətəndaşlar həvəslənib getmək istəyirlər, amma şəhər insanları çox zaman nə ilə qarşılacaqlarını tam anlamırlar. Bizdə ekoturizm anlayışı inkişaf edibmi?**

- Xeyr. Bəzən mənə müraciət edirlər ki, filan kəndə getmək istəyirik, tam şəraitli ev axtarırıq, ən əsası evdə heç kim olmasın. Bu etik deyil axı, evdə yaşayanlar hara getməlidirlər? Müşahidələrim göstərir ki, bizdə ekoturizm anlayışı inkişaf etməyib. Xarici ölkələrdə ekoturizm şəhər komfortundan uzaqlaşmaq deməkdir. Hətta sırf inək sağmaq, məhsul yığmaq üçün regionlara gedirlər. Biz isə şəhər komfortunu kəndə daşımaq istəyirik. Halbuki dadlı kənd yeməyi, kənd adamları ilə ünsiyyət, özünlə baş-başa qalmaq və s. sanki insanın ruhunu yeniləyir. Yeri gəlmişkən, gənclərin səyahət boyu yüksək səsli musiqi ilə əyləndiyini görmüşəm. Onlar təbiətdə olduqlarının fərqində deyillər. Təbiətin öz musiqisi var, bundan zövq almağa çalışmaq lazımdır.

**- Təəssüf ki, regionlara axının mənfi tərəfi də var, dincəlməyə gedənlər özlərindən sonra təmizliyə riayət etmirlər. Bu isə həm təbiətə ziyandır, həm də kənd əhalisinə hörmətsizlikdir. Sizcə, bununla necə mübarizə aparmaq olar?**

- Sım şəlaləsinə maraq artdıqdan sonra ərazisi böyük zibilliyə çevrildi. Bəzən bir yeri tanıtmaqdan çəkinirik. Səhifəmi xaricilər də izlədiyi üçün zibilliyə çevrilmiş əraziləri paylaşa bilmirəm ki, bu ölkənin neqativ tanıtımı olacaq. İnsanlara çağırış edirəm- getdiyiniz yerləri zibilləməyin! Heç kim sizin arxanızca yığışdırmalı deyil. Təbiəti niyə çirkləndirirsiniz? Pəncərədən saqqız atanlar var... Yetkin insanların bu cür zehniyyətini anlaya bilmirəm.

**- Söz düşmüşkən, sizin də fikrinizi öyrənmək istərdim. Bəzən sosial mediada şəhərli-kəndli təsnifatı edirlər. Bəzi məşhurlar ictimai nüfuzundan istifadə edərək insanlar arasında kateqoriyalaşma aparırlar, hətta kəndliləri aşağılayırlar. Sizcə, regionlardan gələnlər həqiqətən şəhər mühitinə mənfi təsir edir?**

- Tanınmış şəxslərin vətəndaşları aşağılamasına təəssüflənirəm. Kim olur-olsun belə bir təsnifat aparmaq doğru deyil. Kəndlilər olmasa, biz şəhərdə yeməyə heç nə tapmarıq. Əkən, becərən kəndlidir. Biz onlara borcluyuq. Kəndliləri təhqir edənləri məhsul yığımı vaxtı kəndlərə aparmaq lazımdır. İstənilən bölgədə kənd həyatının ən böyük ağırlığı qadınların üzərindədir. “Onun bir günü” adlı YouTube layihəmdə məhz kəndli qadınların bir gününü təsvir edirəm. Əksər məhsulların yığımında qadınlar iştirak edir. Üstəlik, məişət qayğıları onların çiyinlərindədir. Bu cür ağır həyat qarşılığında klaviatura arxasında təsnifat aparmaqla ilk növbədə Azərbaycan qadınlarını təhqir edirlər. Şou, layk xatirinə kiminsə heysiyyətinə toxunmaq olmaz. Onsuz xarici düşmənlərimiz kifayət qədərdir. Bir də daxildə bölünməyək.

**- Xarici düşmənlər demişkən, 44 günlük Vətən müharibəsindən sonra İran və Hindistanın ölkəmizdə qarşı qərəzli münasibətini gördük. Siz hər iki ölkəyə səyahət etmisiniz. İzləyicilərinizin bu ölkələrə səyahət etdiyiniz üçün sizə münasibəti dəyişdimi?**

- Səyyah kimi bu ölkələrə küsürəm. Sadə xalq üçün sənin haradan gəldiyin önəmli deyil. İranda sadə xalq çox qonaqpərvərdir. Azərbaycanın abidələri, 30 milyondan çox soydaşımız var orada, amma İran özünü bir nömrəli düşmən kimi aparır. Hindistana təkrar getməyi çox istərdim, amma bu cür münasibətin qarşılığında bu mümkün deyil. Təzyiqlər bir yana, azərbaycanlı kimi düşmənimə silah satan, onu dəstəkləyən ölkələri təbliğ etməyi heysiyyətim götürməz. Üstəlik, heç kim sənə tarixçi-səyyah gözü ilə baxmaz, fikirləşəcəklər ki, görəsən, bu ölkələri niyə təbliğ edir?

**- İrana tək səyahət etmişdiniz. Kifayət qədər riskli qərar idi. Təhlükə hiss etdinizmi?**

- Hər insan qorxuları ilə üz-üzə qalmaq üçün həyatında bir dəfə tək səyahət etməlidir. İstənilən səyahətdə risklər olur. İrana yoldaşlarla çıxmalı idim, amma nəticədə tək getməli oldum. Mənə cəsarətli deyirdilər, amma mənim də qorxularım var idi. Əgər insanın qorxuları varsa, onu heç nəyə məcbur etmək olmaz. Turist və səyahətçi ayrı-ayrı anlayışlardır. Mən səyyah olduğum üçün qorxularımın üstünə getdim.

**- İranda sadə xalq sizə necə münasibət göstərib?**

- Heç bir çətinlik yaşamamışam, düşmənçilik görməmişəm. Azərbaycan dilində danışırdım. Problem siyasətdədir. Təəssüf ki, siyasi rəhbərliyin Azərbaycana münasibəti qənaətbəxş deyil. Güneyli soydaşlarımızın təfəkkürü tam fərqlidir. Güneylilər sadəcə haqlarını istəyirlər-Azərbaycan dilində təhsil almaq, Azərbaycan dilində qəzetlərin nəşr olunmasını və s. İranın İsfahana göstərdiyi qayğını Təbrizə də göstərmələrini istəyirlər. Təbriz abidələrinə qayğı yoxdur. Təbrizin iki düşməni olub: zəlzələ və Pəhləvilər. Pəhləvinin 3-cü arvadı azərbaycanlı idi, amma onun qədər azərbaycanlılara ziyan verən insan olmayıb. Bu gün azərbaycanlılara qarşı düşmənçiliyin kökü Pəhləvilər dövründə qoyulub. Onlar Tehranda Qacarlar dövrünə aid abidələri öz adlarına çıxarıblar, ermənilər kimi. Quran və yaradıcı olmaq üçün sənin keçmişin olmalıdır.

**- Səyahətləriniz barədə kitablarınızda yazmısınız. İki kitab nəşr etmisiniz: “Əfşan” və “Eşqin izi ilə”. Azərbaycanda kitab satışı ilə bağlı vəziyyət bəllidir. Kitablarınızdan qazanc əldə edə bilirsinizmi?**

- Mən Azərbaycanı qarış-qarış gəzib, fotolarını çəkəndə belə düşünürdülər ki, maddi marağım var. Azərbaycanla bağlı fotoları layihə kimi, həm də kitab şəklində təqdim etmək istəyirəm. Bəzi qurumlara müraciət etsəm də, müsbət cavab ala bilmədim. Bu gün layfstayl blogerlər daha çox pul qazanır. Mən isə maddi qazanc güdmürəm. Hər işi sevgi ilə görmək lazımdır.

**❑ Nigar HƏSƏNLİ,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 161 (8297) 12 sentyabr 2023

**2023-cü ilin ilk yarısında Avropa İttifaqına üzv ölkələrə, həmçinin Norveç və İsveçrəyə sığınacaqla bağlı 519 min nəfər müraciət edib. APA-nın xəbərinə görə, bu barədə Avropa İttifaqı Sığınacaq Agentliyi məlumat yayıb.**

# Avropa miqrant böhranında - günahkar həm də özüdür, çünki...

## Yeganə Hacıyeva: "İnsanlar elə düşünür ki, getdikləri yerlərdə həyat tərzi filmlərdə gördükləri kimidir"

Qurum hesab edir ki, ilin sonunadək rəqəm 1 milyonu keçəcək. Hesabatda göstərilir ki, müraciət edənlərin sayı ötən illə müqayisədə 28% çoxdur. Artımın səbəbi kimi bir çox ölkələrdə siyasi, iqtisadi və ekoloji vəziyyətin pisləşməsi göstərilir. Say çoxluğuna görə ilk sıralarda Suriya, Əfqanıstan, Venesuela və Kolumbiya gəlir. Ümumi müraciətlərin 44%-i sözügedən ölkələrin payına düşür. İddiaçıların 30%-i Almaniyaya, 17%-i İspaniyaya, 16%-i isə Fransaya müraciət edib.

Məlumdur ki, Avropa ölkələri miqrasiya qaydalarını sərtləşdirib. Britaniya ötən ay hətta bunu az qala yasaq edən qanun qəbul edib. Ancaq Avropaya üz tutanlar artmaqda davam edir. Avropa, Qərb öz yanlış siyasətinin, yəni dünyada demokratik, iqtisadi böhranlar yaranmasına qarşı müqavimət göstərməməsinin, bəzən despotik rejimləri dəstəkləməsinin acısını çəkir, yoxsa başqa səbəblər var?

Xatırladaq ki, müstəqilliyin ilk illərində Azərbaycandan daha çox Rusiya, Ukraynaya miqrantlar gedirdi. Bir qədər sonra isə Türkiyəyə gedən miqrantların sayı artmağa başladı. Daha sonrakı illərdə isə Azərbaycan vətəndaşları miqrasiya istiqaməti kimi həmçinin Avropa ölkələrini seçməyə başladı.

Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin (ICMPD) Avropa Birliyi ölkələrinə miqrasiyaya dair hesabatına görə, azərbaycanlı miqrantlar Avropada daha çox Polşada məskunlaşıb. Belə ki, 2020-ci ilin statistik göstəricilərinə görə, həmin il 4 min 817 Azərbaycan vətəndaşı Avropa Birliyi ölkələrindən rəsmi yaşayış icazəsi əldə edib. Azərbaycan vətəndaşlarına ən çox rəsmi yaşayış icazəsi verən ölkə Polşa olub. 2020-ci ildə Avropa Birliyi ölkələrindən rəsmi yaşayış icazəsi alan Azərbaycan vətəndaşlarının 30.4 faizi (1 min 469 nəfər) Polşada məskunlaşıb.

Azərbaycan vətəndaşlarının ən çox rəsmi yaşayış icazəsi əldə etdiyi ikinci ölkə Almaniyadır. 2020-ci ildə Avropa Birliyi ölkələrindən rəsmi yaşayış icazəsi alan azərbaycanlıların 23.6 faizi məhz bu ölkəyə üz tutub. Beləliklə, Avropa Birliyi ölkələrindən rəsmi yaşamaq icazəsi alan azərbaycanlıların 54 faizi Polşa və Almaniyaya gedib.

Məlumata görə, Polşada rəsmi iş icazəsi ilə çalışan azərbaycanlıların sayı 13 min nəfərdən çoxdur. Rəsmi yaşayış icazəsi olmadan məskunlaşan azərbaycanlı miqrantlar olduğunun nəzərə alsaq bu rəqəmlərin daha çox olduğunu demək olar.




Polşaya gedən miqrantların sayca artması bu ölkədən Azərbaycana göndərilən pul köçürmələrinin də həcminə təsir göstərib. Mərkəzi Bankın açıqlamalarına görə, ötən il Polşadan Azərbaycana rəsmi pulköçürmə sistemləri ilə 3.8 milyon dollar köçürülüb. 2021-ci ildə bu rəqəm 2.6 milyon dollar idi. Deməli, təkcə son bir ildə Polşadan Azərbaycana pul köçürmələrinin həcmi 50 faizə yaxın artıb.

Digər məlumata görə isə ötən il Azərbaycanın 52 min 570 vətəndaşı Avropa Birliyinə daxil olmaq üçün Şengen vizası almaq istəyib. Ən çox Şengen vizası müraciəti edilən ölkələr Fransa (13 min 847), Almaniya (13 min 324) və Macarıstan (6 min 969) səfirlikləri olub. Müraciətlərə ən çox imtina cavabını Macarıstan səfirliyi verib. Bu ölkəyə viza müraciətlərinin 15.7 faizi imtina ilə nəticələnib. Almaniya (9.4 faiz) və Fransa (7.9 faiz) da imtina payına görə ilk üçlükdədir. Ən az imtina verən isə Avstriya (1.8 faiz), İtaliya (2 faiz) və İsveçrədir (2.7 faiz).

Bununla belə, Avropadan Azərbaycana geri qaytarılan azərbaycanlıların da sayında xeyli artım var. Belə ki, Dövlət Miqrasiya Xidmətinin məlumatına görə, təkcə 2022-ci ildə 350 nəfər Azərbaycan vətəndaşı Avropa Birliyi ölkələrindən Azərbaycana geri qaytarılıb.

Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin hesabatına görə, qonşu Gürcüstandan 29 mindən çox miqrant Avropa Birliyi ölkələrinə üz tutub. Bu rəqəm Azərbaycandan təxminən 6 dəfə çoxdur. Statistikaya görə, gürcülərin ən çox yaşayış icazəsi əldə etdikləri ölkə İtaliya olub. Həmin il Avropa Birliyi ölkələrində məskunlaşan gürcülərin üçdə biri məhz bu ölkədən rəsmi yaşayış icazəsi alıb. İkinci yerdə Polşa gəlir. Avropa ölkələrindən yaşayış icazəsi alan gürcülərin 27 faizi bu ölkəyə üz tutub.

Ermənistandan isə 2020-ci ildə Avropa Birliyi ölkələrindən rəsmi yaşayış icazəsi alanların sayı 5 min 514 nəfər olub. Ermənilərin də Avropada ən çox rəsmi yaşayış icazəsi aldığı ölkə Polşa (22 faiz) və İspaniyadır (14 faiz).

**Mövzu ilə bağlı politoloq Yeganə Hacıyeva "Yeni Müsavat"a danışıb. Ekspert qeyd edib ki, bu məsələdə əsasən psixoloji amil rol oynayır**: "Ümumiyyətlə, Azərbaycan xalqı səyahət etməyi sevir. Məsələn, kənd yerlərində yaşayanlar ayda və yaxud həftədə bir də fə şəhərin mərkəzinə gəlməyə çalışırlar. Yəni xərcləməkləri pulu, vaxtı diqqətə almadan mütləq bunu edirlər. Bu, gündəlik həyat tərzini dəyişmək istəyindən doğur. Azərbaycan insanı gündəlik həyat tərzini dəyişmək istəyini kəskin ehtiyac hiss edən insandır və bu, tarixin bütün mərhələsində özünü göstərir.

Məsələn, Avropa kitabxanalarını, mənbələrini araşdıranda aydın olur ki, Avropanın səsli-küylü məşhur insanlarının böyük əksəriyyəti, o cümlədən ən məşhur riyaziyyatçılar, rəssamlar zamanında məhz bizim yaşadığımız ərazidəki coğrafiyadan, Cənubi Qafqazdan gediblər, xüsusən də Azərbaycandan gediblər. Bunu dahilərin DNT analizləri də sübut edir.

Beləliklə, zamanında Cənubi Qafqazdan, Azərbaycandan çox sayda insanlar Avropaya üz tutub və getdikləri yerdə də kifayət qədər uğurlar qazanıblar.

Yeni və ən yeni tarixə nəzər yetirəndə də görürük ki, bu belədir. Məsələn, 19-cu əsrdə, eləcə də 20-ci əsrin əvvəllərində xeyli sayda azərbaycanlı Avropaya üz tutub, orada yaşayıb-yaradıblar, çox böyük uğurlar qazanıblar. Buna misal olaraq deyə bilərik ki, Türkiyənin ilk vəkil qadını məhz azərbaycanlıdır. Həmçinin Fransada çox məşhur azərbaycanlı hüquqşünaslar olub.

Sovet dövründə azərbaycanlılar daha çox "Ruset" dedikləri Rusiyaya üz tuturdu. Bu dövrdə elə bir kənd, elə bir ailə yox idi ki, yaxınlarından kimsə Rusiyaya getməsin və onların heç də hamısı pis həyatdan vətənlərini tərk etməmişdi, yaşadıqları yerdə getdikləri yerdən yaxşı yaşamırdılar. Ola bilsin ki, vətənlərində müəyyən çətinlikləri var idi, amma ailə qayğısı ilə əhatələnirdilər.

Beləliklə, bu adət bütün dünya insanlarında var və azərbaycanlılar da bundan xali deyil. Dediyim kimi, bu, daha yaxşı, fərqli yaşamaq istəyindən irəli gəlir.

Amma nə sovet dövründə, nə indi Rusiyaya və yaxud digər ölkələrə gedən insanlardan çox azı getdikləri yerdə gəldikləri yerdən daha yaxşı yaşadı, yaşayır. Çünki fərqli mentalitet, düşüncə tərzi, onlara tamamilə yad olan bir cəmiyyət içərisində yaşamaq çətinlikləri var. İnsanlar bəzən yeni cəmiyyəti qəbul edə bilmir və yaxud getdikləri cəmiyyət onları qəbul etmir. Bununla belə, həbsxanaya bənzəyən miqrant düşərgələrində, ərəblə, ya Afrikadan gəlmiş tamamilə fərqli, heç cürə uzlaşmayan mədəniyyət daşıyıcıları ilə birlikdə yaşayıb, özünü xoşbəxt hesab edənlər də var. Vaxtilə sovet dövründə Rusiyaya gedən insanlar kimi onlar da itmiş nəsil hesab olunur.

Azərbaycanlıların bir sözü var, "uzaq təpələrin otları çox yaşıl görünür". Bu gün də Avropaya, eləcə də Kanadaya böyük axın var. Bu, Avropanın təbliğatı, reklamı ilə bağlıdır. İnsanlar elə düşünür ki, getdikləri yerlərdə həyat tərzi filmlərdə gördükləri kimidir. Yəni bu məsələnin əsasını təbliğatda görmək lazımdır. Amma Avropa və yaxud digərləri nə qədər gözəldir, yaxşıdır, bu artıq başqa mövzudur".

**❑ Xalidə GƏRAY, "Yeni Müsavat"**




# Zaxarova ruslara qarşı tətbiq edilən "əşya qadağası"nı irqçilik adlandırıb

**Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib ki, Avropa Komissiyasının Rusiyadan Avropa İttifaqına, hətta şəxsi istifadə üçün avtomobillər, telefonlar, çamadanlar, şampunlar və digər əşyaların gətirilməsinə qadağa qoyulması ilə bağlı izahatları irqçilikdir.**

Qeyd edək ki, Avropa İttifaqı Rusiya Federasiyasında qeydiyyatdan keçmiş şəxsi avtomobillərin Aİ ölkələrinə daxil olmasını yasaqlayıb. Bu qadağa noutbuk, telefon və çamadanlara da şamil oluna bilər.

**❑ Musavat.com**

# ÜST yenə qorxutdu - COVİD-dən ölüm halları artır, məktəblər açılandan sonra...

## Zülfüqar Yusifov: "Yetərincə təcrübəmiz var, hazır olmalıyıq"

**"Koronavirus ştamı "EG.5 D-19" dünyada geniş formada yayılmaqdadır". Bu barədə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) rəhbəri Tedros Adhanom Qebreyesus xəbərdarlıq edib.**

Cenevrədə çıxış edən Qebreyesus qış mövsümü ərəfəsində şimal yarımkürəsində həyəcanverici tendensiyaların müşahidə olunduğunu bildirib.

Onun sözlərinə görə, Yaxın Şərq və Asiyada ölüm hallarının sayı artmaqdadır. ÜST rəhbəri həmçinin qeyd edib ki, Avropada koronavirusun bu variantı ilə reanimasiya şöbələrinə yerləşdirilən xəstələrin sayı artıb.

Qebreyesus ən böyük narahatlıqlardan biri kimi COVİD-19 peyvəndinin son dozasını almamış risk altında olan insanlarda immunizasiya səviyyəsinin aşağı olmasını vurğulayıb.

Əlavə edək ki, bir neçə gündən sonra Azərbaycanda yeni dərs ili başlayacaq. Eyni zamanda havaların, tədricən soyuması nəticəsində insanlar açıq havadan çox qapalı məkanlarda olacaqlar. Hər iki amil, üstəgəl ÜST-ün xəbərdarlığı ölkəmizdə özünü necə göstərəcək? Təzədən peyvəndlənməyə ehtiyac varmı və ilk növbədə hansı kateqoriyadan olan insanlar bunu nəzərə almalıdır?




**"Euronews"un yaydığı məlumatda isə bildirilir ki, iyulun ortalarından etibarən Avropada COVİD-19-a yoluxma artır, daha təhlükəli variantlar üzə çıxır:** "80 yaşdan yuxarı olan insanlarda yoluxmaya daha çox rast gəlinir. Avropanın bir sıra ölkələrində əvvəlki aya nisbətən COVİD-19-a yoluxma 11 faiz artıb. İspaniyada yoluxma əhəmiyyətli dərəcədə artıb. Bu isə əvvəlkilərdən daha yoluxucu olan yeni variantların ortaya çıxması ilə bağlıdır. Hər həftə əvvəlkilərdən daha təhlükəli və daha yoluxucu variant üzə çıxır".

**O da qeyd edilir ki, qış aylarına doğru yoluxma saylarında daha çox artım müşahidə oluna bilər:** "Bu riski azaltmaq üçün mütəxəssislər daha diqqətli olmağı, peyvəndlənməyi tövsiyə edirlər. Peyvənd və şəxsi gigiyena qaydalarına əməl etmək hələ də özümüzü qorumağın ən yaxşı yoludur".

Bildirilib ki, pandemiyanın mümkün yeni dalğasından qorunmaq üçün bir çox Avropa ölkəsi qabaqlayıcı tədbirlər görüb.

**"Ankara" klinikasının baş həkimi Zülfüqar Yusifov mövzu ilə bağlı "Yeni Müsavat"a bildirdi ki, koronavirusun yeni ştamının yaranması barədə məlumatlar var:** "Təbii ki, iqlimin dəyişilməsi ilə əlaqədar hər zaman virus infeksiyalarının alovlanması müşahidə olunur. Xüsusən payız aylarında - sentyabr, oktyabr, noyabr aylarında bu müşahidə olunur. Yeni dərs ilinin başlanması ilə insanlar daha çox toplum olaraq bir yerə yığışacaqlar. Nəticədə təmaslar çoxalır, yoluxma ehtimalları da çoxalmış olur. COVİD-lə bağlı proses əslində tam yekunlaşmayıb. Yoluxmalar da davamlı oldu. İndiki ştamların da ortaya çıxması ehtimal olunurdu. İndi bu yeni ştam da ortadadır. Nə etmək lazımdır. Əlbəttə, yaxın illərdə ciddi təcrübəmiz var. Həm əhalinin, həm də tibbi sisteminin. Birinci növbədə qızıl qaydalara əməl olunmalıdır. Məsafənin saxlanması, dezinfeksiyaedici məhlullardan maksimum istifadə olunması, immun sisteminin möhkəmləndirilməsi üçün olan tədbirlər, eləcə də maskalardan lazım olduqca istifadə olunarsa, yoluxmanın qarşısını almaq olar. Təbii ki, səhiyyə sistemi və rəhbərliyi qismində bu prosesin monitorinqi aparılır. Hər hansı bir həyəcanverici məqam olarsa, əhaliyə, müəssisələrə təlimatlar veriləcək. Hər halda, insanlar da qoruyucu vasitələrdən mümkün qədər istifadə etməlidir. Yoluxan şəxsləri işdən, dərsdən vaxtında uzaqlaşdırmaq lazımdır. Bir sözlə, bizim bununla bağlı yetərincə təcrübəmiz var. Xəstəxanaların hazırlığı lazımi səviyyədədir. Lazımi avadanlıqlar artıq ölkəmizdə var".

Qeyd etmək yerinə düşər ki, pandemiyanın tüğyan etdiyi vaxtlarda Azərbaycanda həkim çatışmazlığı, xüsusən də xəstəxanalarda reanimatoloqların az olduğu, ya da bəzi yerlərdə ümumiyyətlə olmaması barədə narazılıq var idi. Əsasən də bununla bağlı bölgələrdən şikayətlər daxil olurdu. Hazırda vəziyyət necədir, pandemiyanın yeni dalğası olarsa, yenə də həkim sarıdan korluq çəkəcəyikmi?

**Məsələ ilə bağlı Tibb Universitetnin Tədris-Terapevtik Klinikasının reanimasiya şöbəsinin müdiri Emil Qasımov "Yeni Müsavat"a dedi ki, hazırda reanimatoloq çatışmazlığı problemi yoxdur:** "Çalışdığım "Yeni klinika"da reanimatoloq çatışmazlığı yoxdur. Başqa xəstəxanaları deyə bilmərəm. Amma bizdə həkimlərin hər biri peşəkar mütəxəssislərdir, peşəkar xidmət də göstərirlər".

❑ **Afaq MİRAYİQ, "Yeni Müsavat"**

# AMEA-dan "Yeni Müsavat"da dərc olunan yazıya cavab




## "İsa Həbibbəyli 2 milyon vəsaitin hara və nəyə xərclənməsi barədə məlumatlı ola bilməzdi, çünki... "

**Milli Elmlər Akademiyasının (AMEA) mətbuat xidməti "Yeni Müsavat" qəzetinin 9-11 sentyabr 2023-cü il tarixli sayında "AMEA prezidentinə şok ittiham: "Bir neçə vəzifə tutub, korrupsiyaya göz yumur..." məqaləsindəki ittihama cavab verib.**

AMEA-nın mətbuat xidmətindən daxil olan açıqlamada deyilir ki, sözügedən məqalədəki məlumatlar obyektiv reallığı əks etdirmir:

"Belə ki, barəsində söz açılan akademiyanın Dilçilik İnstitutunun maddi-texniki bazasını möhkəmləndirmək və dilçilik elmini inkişaf etdirmək üçün dövlət tərəfindən nəzərdə tutulmuş 2 milyon manatlıq maliyyə vəsaiti 29 may 2012-ci il tarixdə ayrılmış və həmin ilin sonuna qədər avadanlıqlar alınmış, 12 iyun 2013-cü il tarixdə isə nəzərdə tutulan kitabların nəşri barədə hesabat təqdim olunub.

Akademik İsa Həbibbəyli isə qeyd edilən dövrdə Naxçıvan Dövlət Universitetinin rektoru vəzifəsində işlədiyi üçün nə ayrılmış maliyyə vəsaiti, nə də həmin vəsaitin hara və nəyə xərclənməsi barədə heç bir məlumata malik ola bilməzdi. Məlum olduğu kimi, İsa Həbibbəyli 24 aprel 2013-cü il tarixdə AMEA-nın Ümumi yığıncağında akademiyanın vitse-prezidenti vəzifəsinə seçilmiş, may ayından etibarən vəzifəsinin icrasına başlamışdı.

Bundan başqa, bir daha qeyd etməyi lazım bilirik ki, akademiya sistemində vitse-prezidentlik institutu vasitəsilə bank və maliyyə əməliyyatlarının aparılması proseduru heç vaxt olmamışdır və indi də yoxdur. AMEA-nın vitse-prezidenti vəzifəsini daşıyan şəxslər akademiyanın nizamnaməsinin müddəalarına uyğun olaraq, onlara aid olan elmi bölmənin və həmin bölmənin tərkibindəki elmi-tədqiqat institutlarının elmi-təşkilati, elmi-metodiki problemlərinin həll edilməsi, beynəlxalq əlaqələrin təşkili və tənzimlənməsi, müxtəlif səviyyəli elmi tədbirlərin keçirilməsi, mütəxəssis hazırlığı, seçkilərin keçirilməsi və sair kimi məsələlərlə məşğul olur, müəyyən edilmiş islahatların və proqramların həyata keçirilməsi vəzifələrini icra edirlər. Bu baxımdan, akademiyada hər hansı bir tabe elmi qurumda maliyyə məsələləri ilə əlaqələr məsuliyyəti vitse-prezidentlərə aid etmək, bu kontekstdə Nəsimi adına Dilçilik İnstitutundakı maliyyə proseslərini vitse-prezident vəzifəsində çalışmış İsa Həbibbəyliyə bağlamaq tam əsassızdır.

Buna baxmayaraq, müxtəlif vaxtlarda bəzi qüvvələr sosial şəbəkələrdə məqsədli şəkildə haqsız olaraq İsa Həbibbəylinin adını Dilçilik İnstitutuna aid maliyyə məsələləri ilə hallandırmaqla cəmiyyətdə mənfi rəy formalaşdırmağa çalışmışlar. AMEA-nın vitse-prezidenti kimi İsa Həbibbəyli 1 fevral 2021-ci il tarixdə sosial şəbəkələrdə və mətbuatdakı açıqlamasında Dilçilik İnstitutuna ayrılmış maliyyə vəsitinin xərclənməsinin onun fəaliyyəti ilə heç bir əlaqəsi olmadığını rəsmən bəyan etmişdir.

AMEA-nın rəhbər işçilərinin əlavə vəzifə daşımaları haqqında isə onu bildirmək istəyirik ki, akademiyada çoxillik ənənəsi olan bu məsələ ilə əlaqədar artıq müvafiq layihə hazırlanıb, yaxın zamanlarda ictimaiyyət bunun nəticələri ilə tanış olacaqdır".

Xatırladaq ki, adıçəkilən məqalədə "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin Analitik təhlil və proqramlaşdırma şöbəsinin müdiri, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun əməkdaşı, dosent Şahlar Məmmədovun (Şahlar Göytürk) və AMEA Nəsimi adına Dilçilik İnstitutunun Nəzəri dilçilik şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor İdris Abbasovun fikirləri yer almışdı. İnstitutun professorları dövlət tərəfindən elmə ayrılan pulların "yeyildiyini", İsa Həbibbəylinin isə bu korrupsiyaya "göz yumduğunu" qeyd etmişdilər.

"Ümid edirəm ki, dövlətin dilimizin və dilçilik elmimizin inkişafına ayırdığı pulları basıb yemə əməliyyatına və plagiat əsərlərin dövlət vəsaiti hesabına çap olunmasına, əsl iş görənlərin sıxışdırılmasına, elm müəssisəsinin bazara çevrilməsinə və digər rüsvayedici məsələlərə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli reaksiya verəcək, təbii ki, əgər özündə güc tapacaqsa! Hər halda, cənab Həbibbəyli elmə töhfəsi olan, maaşa baxan dürüst Azərbaycan aliminin ehtiyac içində çırpındığı bir vaxtda, 4-5 dövlət vəzifəsi tutub (həmin vəzifələri icra etmək onun fiziki və zehni imkanları xaricindədir) büdcədən böyük maaşlar alsa da, bu qəbil taleyüklü problemlərin altına əlini qoymur", deyə İdris Abbasov bildirmişdi.

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 161 (8297) 12 sentyabr 2023

## Bunları bilirsinizmi?

Sentyabr

* Gün ərzində bir qutu siqaret çəkən şəxs həyatının hər ilindən bir neçə saniyə məhv edir.
* Napoleonun əsgərlərinin generala "SƏN" deyə müraciət etmək hüquqları var idi.
* Birinci minillikdə 365 min 250 gün, ikinci minillikdə 365 min 237 gün olub. Üçüncü minillikdə isə 365 min 242 gün olacaqdır.
* Dünyadakı canlılardan düz xətt çəkə bilən yeganə məxluq insandır.
* Yaponiyaya atılan ilk atom bombası "Enola Gay", ikinci isə "Bocks Car" adlanan təyyarələrdə yerləşmişdir.
* Şampan şüşəsi tıxacının uçuş sürəti saniyədə 14, uçuş məsafəsi isə 12 m-dir.
* İlk reklam 1477-ci ildə İngiltərədə istehsal olunub. Bu, dua kitabının reklamı idi.
* Tarixdə ən qısa müharibə 1896-cı il avqustun 27-də Böyük Britaniya ilə Zanzibar arasında baş vermişdir. Bu müharibə 38 dəqiqə davam etmişdir.
* Gülüş zamanı insanın 17 əzələsi işləyir.
* İnsanın həyatı boyu başında çıxan tükləri ölçsək 725 km edəcək.
* Cek-Petroşitel XIX əsrin ən tanınmış qatilidir. O, öz cinayətlərini yalnız və yalnız bazar günləri həyata keçirib.
* Dahi fizik Albert Eynşteyn öləndə son sözlərini özü ilə 'o dünyaya' aparmışdır. Çünki ölən zaman onun yanında olan tibb bacısı alman dilini bilmirdi.
* 'Yüzillik müharibə' (1337-1453) fasilələrlə 116 il davam etmişdir.
* İnsan orqanizmində leykositlər 2-4, eritrositlər isə 3-4 ay yaşayır.

# Bayden yatmaq istədiyinə görə mətbuat konfransı başa çatdı



**ABŞ Prezidenti Co Bayden Hanoyda gecə saatlarında keçirdiyi mətbuat konfransında danışarkən yatmağa getdiyini söyləyib və qısa müddət sonra görüş başa çatıb. "Sizə belə deyəcəyəm. Sizi bilmirəm, amma mən yatmağa gedirəm", - deyə dövlət başçısı bəyan edib. Bundan sonra zaldan jurnalistlərin sualları səslənsə də, onların sözü kəsilib və mətbuat konfransının yekunlaşdığı bildirilib.**



## "Daniel" qasırğası Liviyaya çatdı

**Yunanıstan və Bolqarıstanda daşqınlara səbəb olan "Daniel" qasırğası Liviyaya çatıb. Fırtınaya görə yerli hakimiyyət ehtiyat tədbiri olaraq dörd böyük neft limanını bağlamağa məcbur qalıb. Ərəbistan Meteorologiya Mərkəzi ölkədə leysan yağış yağacağı, ildırım çaxacağı, daşqın olacağı barədə məlumat yayıb. Liviyanın baş naziri Usamə Hammad ölkənin şərqində təhlükəsizlik, səhiyyə və təcili xidmətlər istisna olmaqla, bütün sektorlar üçün iki günlük tətil olacağını açıqlayıb.**

## Ebeko vulkanı 3,5 kilometr yüksəkliyə kül püskürdü

**Vulkanoloqlar Böyük Kuril silsiləsində (Saxalin vilayəti) Paramuşir adasındakı Ebeko vulkanında hündürlüyü 3,5 km olan kül dumanı qeydə alıblar. Bu barədə Rusiya Fövqəladə Hallar Nazirliyinin Saxalin vilayəti üzrə Baş İdarəsinin Mətbuat Xidməti xəbər yayıb. Məlumata görə, şleyf cənuba doğru 5 km-ə qədər məsafəyə yayılıb.**



## Rusiyalı qadının mənzilindən 37 kisə zibil çıxdı

**Ryazan vilayətinin sakini mənzilini zibilliyə çevirib. Hadisə şahidlərinin sözlərinə görə, evdən 37 kisə zibil çıxarılıb. Deyilənlərə görə, əvvəllər tullantıların yığılması səbəbindən mənzilə daxil olmaq müşkül məsələ idi. Qadının psixi promlelərinin olduğu və müalicə üçün müvafiq müəssisəyə göndərildiyi bildirilir.**

# Yakutiyada son 10 ilin ən böyük almazı çıxarılıb



**Yakutiyanın Anabar bölgəsindəki Mayat almaz mədənində son 10 ilin ən böyük qiymətli daşı hasil edilib. Mədəni "ALROSA"nın törəmə şirkəti "Almazı Anabara" işlədir. Məlumata görə, daşın çəkisi 390,7 karatdır. Qeyd olunur ki, tapılan almaz qeyri-standart formalı açıq kristal olub, sarı-qəhvəyi çərçivə ilə haşiyələnir. O, kütlə, forma və rənginə görə unikaldır. Bundan əvvəl, 401 karat ağırlığında ən böyük qiymətli almaz on il əvvəl, 2013-cü ildə tapılmışdı.**

## Hansı məhsul qocalma prosesini ləngidir?

**Hər kəs gəncliyini uzun müddət saxlamaq istəyir. Qidalanma mütəxəssisi Mixail Qinzburq qocalma prosesini ləngitməyə kömək edə biləcək məhsulu açıqlayıb. O, bitki zülalını qeyd edərək, bu maddənin lazımi miqdarının cücərmiş lobyada olduğunu bildirib. Ekspert izah edib ki, bitki mənşəli zülal xüsusən 40 yaşdan yuxarı insanlar üçün faydalıdır. Bununla belə, onun fikrincə, uşaqlar və gənclərin ət, balıq, yumurta və s. tərkibində ola bilən heyvani zülallardan istifadə etməsi daha vacibdir.**

Hansı məhsul qocalma prosesini ləngidir? Hər kəs gəncliyini uzun müddət saxlamaq istəyir. Qidalanma mütəxəssisi Mixail Qinzburq qocalma prosesini ləngitməyə kömək edə biləcək məhsulu açıqlayıb. O, bitki zülalını qeyd edərək, bu maddənin lazımi miqdarının cücərmiş lobyada olduğunu bildirib.

Ekspert izah edib ki, bitki mənşəli zülal xüsusən 40 yaşdan yuxarı insanlar üçün faydalıdır. Bununla belə, onun fikrincə, uşaqlar və gənclərin ət, balıq, yumurta və s. tərkibində ola bilən heyvani zülallardan istifadə etməsi daha vacibdir.



## Lev Tolstoyun qeyri-adi hobbiləri üzə çıxdı

**Görkəmli rusiyalı yazıçı Lev Tolstoyun qeyri-adi hobbiləri üzə çıxıb. "Hərb və sülh"ün müəllifi qraf tituluna baxmayaraq, ev təsərrüfatında da çox işlər görüb. O, xüsusilə ayaqqabı tikməyi çox xoşlayıb. Yazıçı özünə lazımi alətlər, xammal alıb və dəzgah düzəltdirib.**

Hətta bir dəfə şair Afanasi Fet yazıçıya çəkmələr sifariş edib və onun əl işindən razı qalıb. Bundan əlavə, Tolstoy çəki daşları ilə məşqlər edir, konki, velosiped sürür və uzun məsafəni piyada gedirmiş. Yazıçının qızı Tatyana Suxotina-Tolstaya atasının Moskvadan Yasnaya Polyanaya qədər təxminən 200 kilometr piyada getdiyini xatırladıb.

## Şahzadə Diananın paltarı inanılmaz qiymətə satıldı



**Vaxtilə şahzadə Dianaya məxsus olan üç paltar "Julien's" auksion evi tərəfindən 1,3 milyon funta (təxminən 2.75 milyon manat) satılıb. Ən bahalı lot 1980-ci illərdə britaniyalı modeler Bryus Oldfild tərəfindən şahzadə üçün yaradılmış qırmızı ipək paltar olub. Böyük Britaniya kralının keçmiş həyat yoldaşı bu paltarı ən azı üç dəfə geyinib: iki dəfə 1989-cu ildə və bir dəfə 18 noyabr 1991-ci ildə Londonda "Hot Shots" filminin dünya premyerasında.**

Hərrac evinin nümayəndələri paltardan təxminən 160 min funt-sterlinq qazanacaqlarını gözləsələr də, sonda onun qiyməti 458,5 min funt-sterlinq olub. İkinci ən bahalı lot, şahzadənin 1991-ci ildə Kanadada keçirilən tədbirdə geyindiyi modeler Ketrin Uokerin Diana üçün tikdiyi qara-yaşıl büstye-paltar olub. Əvvəlcə dəyəri 80 000 funt-sterlinq olan geyim 450 000 funta satılıb.

Üçüncü geyim - Ketrin Uoker tərəfindən hazırlanmış qara məxmər və fil sümüyü rəngli paltarın qiyməti 48 000 funt-sterlinqdən başlasa da 407 000 funt sterlinqə satılıb. Paltarların satışından toplanan rekord məbləğ bütün gözləntiləri üstələyib.

## Qatili nadir rast gələnən ayaq ölçüsünə görə tapdılar

**Rusiyanın Sverdlovsk vilayətində qatili ayaqqabısı sayəsində tapıblar. Belə ki, cinayət törədilən yerdə həmin şəxsin nadir rast gələnən, 51 ölçülü idman ayaqqabısı qalıb. Taqilstroyevski Rayon Məhkəməsi yerli sakin Valentin Kozlovu dostunu qətlə yetirdiyinə görə 11 il müddətinə azadlıqdan məhrum edib.**

Məhkəmə müəyyən edib ki, təqsirləndirilən şəxs yaşadığı mənzildə dostu ilə spirtli içki qəbul edib və aralarında mübahisə olub, bu zaman Kozlov dostunu döyərək öldürüb. Sərxoş vəziyyətdə olan cinayətkar qətldən sonra idman ayaqqabısının bir tayını tapa bilmədiyi üçün onu otaqda qoyaraq mənzili tərk edib. Polislər Kozlovu ayağının nadir rast gələnən ayaq ölçüsünə görə tapıblar - bundan əvvəl o ayağının iri ölçüsünə görə hüquq-mühafizə işçilərinin diqqətini çəkib.

## Elektron siqaretin daha bir zərəri məlum oldu

**Elektron siqaretin daha bir zərəri məlum olub. Bu barədə "Circulation" elmi jurnalında dərc olunan məqalədə bildirilib. Belə ki, bir qrup alimin araşdırması elektron siqaretin orqanizmdə xolesterol səviyyəsini yüksəltdiyini sübut edib. Bu vasitə, həmçinin bədəndəki triqliseridlərin səviyyəsinə də mənfi təsir göstərir. Tədqiqatın müəllifi həkim Sana Məcid bildirib ki, terapevtlər siqaret aludəçisinin elektron siqaretdən istifadə etməsinin onlar üçün daha faydalı olduğuna inansalar da, əslində bu, belə deyil.**

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Sifariş: 2371

Lisenziya N: B 114

SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.